

**Boris Conson: “Böyük Britaniya Azərbaycanın sarsılmaz tərəfdaşıdır və bundan sonra da olacaqdır”**

2

# Prezident İlham Əliyev Rusiyada rəsmi səfərdədir



2

Səs
№ 033 (6474) 22 fevral 2022-ci il. Qiymәti 60 qәpik

# “Koçaryan və Sarkisyan beynəlxalq məhkəməyə verilə bilər”



7



5

## YAP Mərkəzi Qərargahında müşavirə keçirilib

## “Bu gün futbolda ondan böyük istedad yoxdur”



“Barselona”nın baş məşqçisi Xavi futbolçusu Pedri haqda fikirlərini bildirib. ”Marca”nın yazdığına görə, La Liqanın 25-ci turunun ”Valensiya”ya qarşı dünənki matçından (4:1) sonra təşkil edilən mətbuat konfransında gənc mütəxəssis 19 yaşlı oyunçu barədə müsbət fikirlər...

16

## Baharın ilk müjdəçisi - Su çərşənbəsi




12



## “İkiqat “obrazovannı”lar” FELYETON

10

Allah sizə rəhmət eləsin, mollanəsrəddinçilər. Hələ ötən əsrin əvvəllərində-Azərbaycan Xalq Cümhuriyyətinin...



## İtaliyalı professor: “Sülhün bərqərar olmasında Zəngəzur dəhlizinin açılması mühüm amildir”

15

Daşkənddəki Beynəlxalq Vestminster Universitetinin professoru, Vision&Global Mərkəzinin (vision-gt.eu) analitiki...



# Prezident İlham Əliyev Rusiyada rəsmi səfərdədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin dəvəti ilə fevralın 21-də Rusiya Federasiyasına rəsmi səfərə gəlib. AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı "Vnukovo-2" Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.**

Dövlətimizin başçısı İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Rusiya Federasiyasının xarici işlər nazirinin müavini Andrey Rudenko və digər rəsmi şəxslər qarşıladılar.

Fəxri qarovul dəstəsinin rəisi dövlətimizin başçısına raport verdi, Azərbaycanın və Rusiyanın Dövlət himnləri səsləndirildi.

## Avropa İttifaqı ilə Azərbaycan arasında konstruktiv dialoq mövcuddur

### Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaarın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin uğurla inkişaf etdiyini qeyd etdi. Avropa İttifaqı ilə Azərbaycan arasında konstruktiv dialoqun mövcud olduğunu söyləyən dövlətimizin başçısı Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel ilə müntəzəm dialoq apardığını xatırlatdı. Prezident İlham Əliyev Prezident Şarl Mişelin Azərbaycan-Avropa İttifaqı münasibətlərinə, həmçinin Ermənistan-Azərbaycan əlaqələrinin normallaşmasına töhfəsini müsbət qiymətləndirdiyini vurğuladı.

Toivo Klaar Azərbaycan-Avropa İttifaqı münasibətlərinin inkişafından məmnunluğunu ifadə etdi. Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasında iştirak etmək və Azərbaycan- Avropa İttifaqı əlaqələrinə dair müzakirələr aparmaq üçün Aİ-nin iki komissarının bu yaxınlarda Azərbaycana səfər etdiyini xatırladan xüsusi nümayəndə səfər çərçivəsində çox səmərəli müzakirələrin aparıldığını dedi. Toivo Klaar da Prezident Şarl Mişelin Azərbaycan-Avropa İttifaqı münasibətlərinə, həmçinin Ermənistan-Azərbaycan əlaqələrinin normallaşmasına önəmli dəstək verdiyini bildirdi. O, həmçinin Azərbaycan ilə Avropa İttifaqı arasında əməkdaşlığa dair yeni saziş üzrə danışıqların tezliklə yekunlaşacağına ümidvar olduğunu dedi.

Prezident İlham Əliyev Aİ-nin iki komissarının Cənub Qaz Dəhlizi Məşvərət Şurasının iclasında iştirakını müsbət qiymətləndirdiyini və bunun Avropa İttifaqının Azərbaycan ilə münasibətlərə verdiyi önəmin ifadəsi olduğunu bildirdi. Dövlətimizin başçısı Azərbaycan-Avropa İttifaqı əlaqələrinin şaxələndirilmiş xarakter aldığını və bir çox sahələri əhatə etdiyini diqqətə çatdırdı. Prezident İlham Əliyev Avropa İttifaqının qonşuluq və genişlənmə üzrə komissarı Oliver Varhelyinin bəyan etdiyi kimi Azərbaycana müxtəlif layihələrin dəstəklənməsi üçün iki milyard avro dəyərində güzəştli kredit xəttinin ayrılmasının da əlaqələrimizin müsbət inkişafının göstəricisi olduğunu bildirdi.

Dövlətimizin başçısı ötən ilin dekabrında Prezident Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə Ermənistanın baş nazirinin də iştirakı ilə keçirilən görüşün əhəmiyyətini vurğuladı. Brüssel gündəliyinin önəmini diqqətə çatdıran Prezident İlham Əliyev bu xüsusda müzakirələrin və praktiki işin aparılmasının vacibliyini qeyd etdi, həmçinin Azərbaycana minaların təmizlənməsi prosesində veriləcək dəstəyin təqdir olunduğunu dedi. Dövlətimizin başçısı Avropa İttifaqı ilə Azərbaycan arasında əməkdaşlığa dair saziş üzrə danışıqların intensiv şəkildə aparılması və onun tez bir zamanda yekunlaşdırılması üçün müvafiq qurumlara tapşırıqların verildiyini diqqətə çatdırdı. Birinci Ermənistan-Azərbaycan müharibəsi zamanı dörd mindən artıq insanın itkin düşdüyünü xatırladan Prezident İlham Əliyev ötən il Brüsseldə və cari il fevralın 4-də Fransa Respublikasının Prezidenti Emmanuel Makronun təşəbbüsü ilə dördlü formatda keçirilən görüşlərin nəticəsi olaraq itkin düşmüş şəxslərin taleyinin və onların basdırıldığı kütləvi məzarlıqların müəyyən edilməsi məsələsində Ermənistan tərəfinin konstruktiv formada davranmasının vacibliyini diqqətə çatdırdı.

Görüşdə, həmçinin Ermənistan-Azərbaycan arasında kommunikasiyaların bərpası, sərhədlərin delimitasiyası və digər prinsipial məsələlərə dair ətraflı fikir mübadiləsi aparıldı.

## Boris Conson: "Böyük Britaniya Azərbaycanın sarsılmaz tərəfdaşıdır və bundan sonra da olacaqdır"



Martın 11-də Böyük Britaniya və Azərbaycan Respublikası diplomatik münasibətlərin qurulmasının 30 illiyini qeyd edəcəklər. Bu fürsətdən istifadə edərək Böyük Britaniyanın ölkələrimiz arasındakı əlaqələrə verdiyi əhəmiyyəti bir daha qeyd etmək istərdim. AZƏRTAC xəbər verir ki, bu fikirlər Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Boris Consonun Azərbaycan Respublikası ilə Böyük Britaniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi ilə əlaqədar Prezident İlham Əliyevə ünvanladığı təbrikdə yer alıb.

Baş nazir Boris Conson qeyd edib ki, son 30 il ərzində Böyük Britaniya və Azərbaycan Respublikası mühüm strateji tərəfdaşlığın inkişaf etdirilməsi üçün birgə çalışıblar. Mən çox şadam ki, Böyük Britaniya sərmayələrinin Azərbaycanın enerji sektoruna yatırıldığı ilk vaxtlardan etibarən bu əlaqələr genişlənib və çiçəklənib.

Məktubda, həmçinin deyilir: "İnvestisiya və ticarət artmaqda davam edir, təhsil və mədəni əlaqələrimiz son dərəcə sıxdır, biz iqlim dəyişikliyi və təmiz enerji, regional təhlükəsizlik, qadın və qızlara dəstək daxil olmaqla mühüm məsələlər üzrə getdikcə daha böyük dəyər qazanan əməkdaşlığa nail olmuşuq. Böyük Britaniya Azərbaycan Respublikasının sarsılmaz və dəstək verən tərəfdaşıdır və bundan sonra da olacaqdır".

Böyük Britaniyanın Baş naziri qarşıdakı illərdə ölkələrimiz arasında tərəfdaşlığın davamlı şəkildə inkişaf edəcəyini böyük ümidlə gözlədiyini qeyd edib.

# Azərbaycan-Çin əlaqələri: yüksələn xətlə inkişaf edən uğur tandemi

## Qarşıdakı illərdə münasibətlərin daha da dərinləşməsi yönündə münbit imkanlar həyata keçiriləcək

**Azərbaycanla Çin Xalq Respublikası (ÇXR) arasında münasibətlərin qurulmasının 30-cu ildönümü ərəfəsindəyik. Bu tarix 2 aprelə təsadüf edir. Məhz iki ölkə - Azərbaycanla Çin arasında yaranan əlaqələrin inkişafı ötən illər ərzində kifayət qədər böyük yol qət edərək möhkəm təməllərə söykənir. Bu baxımdan da əminliklə qeyd etmək olar ki, Azərbaycan-Çin əlaqələri dostluq və qarşılıqlı etimad üzərində qurulmuşdur. Yüksələn xətlə inkişaf edən ikitərəfli əlaqələrdə iki dost ölkənin siyasi bağlılıqları da belə qənaətə gəlməyə kifayət qədər zəmin yaradır ki, qarşıdakı illərdə münasibətlərin daha da dərinləşməsi yönündə münbit imkanlar həyata keçiriləcək.**

O da təsadüfi deyildir ki, Azərbaycanda iqtidar partiyası olan Yeni Azərbaycan Partiyası (YAP) ilə Çin Kommunist Partiyası (ÇKP) arasında sıx əməkdaşlıq mühiti mövcuddur.



### Tarixi bağlılıq!

Ölkələrimiz arasındakı əlaqələrimizin inkişafında Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin tarixi addımları mövcuddur. Belə ki, məhz 1994-cü ilin martında Onun Çinə rəsmi səfəri münasibətlərimizin dayanıqlı təməlini qoydu. Ulu Öndər Heydər Əliyev siyasi strategiyasının layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Çinə etdiyi dövlət səfərlərindən sonra isə əlaqələrimiz keyfiyyətcə daha yüksək səviyyəyə tərəf yüksəlib.

Bu illər ərzində həyata keçirilən layihələr də bu cür qənaətə gəlməyə əsaslar verməkdədir. 2019-cu ilin aprelində "Bir kəmər, bir yol" forumunda iştirak etmək üçün Azərbaycan Prezidentinin Çinə səfəri zamanı bu ölkə ilə 820 milyon ABŞ dolları dəyərində 10 saziş imzalanmışdır.

Son illərə qədər isə iki ölkə arasında çoxsaylı hüquqi sənədlər imzalanıb. Əbəs deyil ki, Azərbaycanda onlarla Çin şirkətləri qeydiyyatdan keçmişdir. Azərbaycan eyni zamanda, ÇXR-in Sədri Si Cinpinin Bir Kəmər Bir Yol təşəbbüsünü ilk dəstəkləyən ölkələrdəndir.



### Si Cinpin: "Bizim əməkdaşlığımızın artıq bir sıra nəticələri var və bu əməkdaşlıq xalqlarımıza real fayda verir"

Əbəs deyil ki, Si Cinpin Prezident İlham Əliyevin Çinə etdiyi rəsmi səfəri zamanı Azərbaycanın Avrasiya məkanında əməkdaşlıq üzrə Çinin əsas tərəfdaşlarından biri olduğunu vurğulayıb. "Siz həm də "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasına ilk olaraq münasibət bildirənlərdən və bu işdə fəal iştirak edənlərdən birisiniz", deyə dövlət başçımıza xitabən deyən ÇXR-in Sədri onu da vurğulayıb ki, Azərbaycan Böyük İpək Yolu üzərində yerləşir və bu yolun bərpasında təbii tərəfdaşdır. SİTAT: "Bizim əməkdaşlığımızın artıq bir sıra nəticələri var və bu əməkdaşlıq xalqlarımıza real fayda verir. Sizinlə birlikdə ortaq səylərimizlə "Bir kəmər, bir yol" layihəsinin reallaşdırılmasını davam etdirməyə, birgə inkişaf və firavanlıq naminə bütün sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı daim dərinləşdirməyə hazıram.

Cənab Prezident, Siz Çin xalqının çoxdankı dostusunuz, Çin-Azərbaycan münasibətlərinin və bütün sahələrdə əməkdaşlığın inkişafı üçün şəxsən daim səy göstərirsiniz. Mən bunu yüksək qiymətləndirirəm və Sizinlə sıx əlaqə saxlamağa, ikitərəfli münasibətləri birlikdə sağlam məcrada inkişaf etdirməyə hazıram. Çin Kommunist Partiyası da Yeni Azərbaycan Partiyası ilə əlaqələri fəallaşdırmağa, dövlət idarəçiliyi təcrübəsini mübadilə etməyə, iki ölkə arasında qarşılıqlı etimadı möhkəmlətməyə hazırdır".



### İlham Əliyev: "Biz birgə səylərimizlə əməkdaşlığımızı irəlilədirik, bundan sonrakı qarşılıqlı fəaliyyətin yollarını müəyyən edirik"

Daha bir mühüm məqam budur ki, müstəqil Azərbaycan qlobal əhəmiyyət kəsb edən neft və qaz kəmərlərinin çəkilişinin fəal iştirakçısıdır. Artıq ölkəmiz Bakı-Tbilisi-Qars dəmiryolu layihəsini uğurla reallaşdırmışdır. O cümlədən, Azərbaycan Çinlə enerji, qeyri-neft, o cümlədən nəqliyyat sahəsində əməkdaşlığı dərinləşdirmək niyyətində olduğunu bəyan edib.

Dövlətimizin Başçısı görüş əsnasında vurğulayıb: "Biz "Bir kəmər, bir yol" Forumunda iştirak etməyə dəvət olunmağımızı ölkəmizə xüsusi hörmət əlaməti, mənə münasibətdə dostluq əlaməti hesab edirik. Siz qeyd etdiniz ki, mən Sizin ölkənizin dostuyam, Azərbaycanda da Sizi Azərbaycanın xeyirxah dostu kimi tanıyırlar. Biz birgə səylərimizlə əməkdaşlığımızı irəlilədirik, bundan sonrakı qarşılıqlı fəaliyyətin yollarını müəyyən edirik".

Qeyd edək ki, Çinlə mədəni, humanitar sahələrdə əlaqələrin genişlənməsi günün tələbidir. Ölkəmizdə Çin dilinə, mədəniyyətinə maraq artmaqdadır.

Daha bir mühüm məqam Azərbaycanın Milli Məclisinin Çin parlamenti ilə sıx və davamlı əlaqələr qurması ilə bağlıdır. Bu gün parlamentlər arasında işçi qruplar fəaliyyət göstərir və eyni zamanda, deputatların çoxsaylı qarşılıqlı səfərləri, beynəlxalq tədbirlər çərçivəsində görüşləri zamanı onları düşündürən məsələlərin müzakirəsi baxımından önəmlidir.

### Qo Min: "Çin şirkətləri Qarabağda aparılan bərpa-quruculuq işlərində fəal iştirak edirlər"

Artıq sirr deyil ki, həm Çin Azərbaycanla, həm də Azərbaycan Çinlə həyatın ən müxtəlif sahələrində əlaqələri dərinləşdirmək niyyətindədir. Bu uğurlu tandemin məntiqi nəticəsidir ki, Çinlə Azərbaycan arasında mövcud olan yüksək siyasi dialoq iqtisadi-ticari münasibətlərə də müsbət təsirlərini göstərir. Bu kontekstdə kənd təsərrüfatı, nəqliyyat, təhsil, mədəniyyət sahələrindəki əməkdaşlığı da xüsusilə vurğulamaq olar

Ən diqqətçəkən məqamlardan biri isə budur ki, daim Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəklədiyini bəyan edən ÇXR bu dəfə



Azərbaycanın 44 günlük müharibədə əldə etdiyi qələbəsindən sonra işğaldan azad edilmiş torpaqlarımızda - Qarabağ regionunun dirçəldilməsində iştirak etmək üçün aparıcı şirkətlərini təhkim etmişdir. Əbəs deyil ki, Çinin Azərbaycandakı səfiri, xanım Qo Min mövzu ilə bağlı münasibətini açıqlayarkən vurğulayıb: "Azərbaycan ilə Çin arasında dostluq münasibətləri mövcuddur. Çin şirkətləri Qarabağda aparılan bərpa-quruculuq işlərində fəal iştirak edirlər".

O cümlədən, Azərbaycanın çox gözəl və əsrarəngiz ölkə olduğunu vurğulayan səfir deyib ki, Qarabağa, Şuşaya səfərdən çox məmnundur.

"Mən çox heyrətləndim. Qısa müddətdə bu qədər nəhəng işlər görülüb. Təəssüratlarım çox zəngindir", deyə Qo Min qeyd edib.

Beləliklə, ikitərəfli əlaqələrin tərəqqisi hər iki ölkə üçün qarşıda daha münbit, geniş şəraitlər yaradır və bu əlaqələrin daha da möhkəmləndirilməsi paralel olaraq bütövlükdə böyük regional layihələrin reallaşdırmasına vüsət və təkan verəcək.

***Rövşən RƏSULOV***

# İctimai-siyasi fəaliyyəti ilə uğurlara imza atan

# Mehriban Əliyeva



***Ölkəmizin və xalqımızın maraqlarını hər şeydən üstün tutacağam, Azərbaycana layiqincə xidmət etməyə çalışacağam". Bu fikri Azərbaycanın Birinci xanımı Mehriban xanım Əliyeva Respublikasının Birinci vitse-prezidenti təyin edilərkən bildirib. Azərbaycan Prezidenti İlham Əliyevin ona göstərdiyi yüksək etimada görə dövlət başçısına dərin minnətdarlığını bildirən Mehriban Əliyeva "Bu vəzifəyə təyin olunmaqla öhdəmə düşən məsuliyyətin ciddiliyini tam şəkildə dərk edirəm və inanıram ki, Cənab Prezident, Sizin və mənə inanan bütün insanların etimadını doğrultmağı bacaracağam", - deyə qeyd etmişdir. Artıq həmin ildən 5 il ötüb. Əlbəttə ki, həmin zamana qədər Mehriban xanım Əliyeva ölkəmizin ictimai-siyasi, mədəni həyatında həyata keçirdiyi layihələri ilə insanların sevimlisinə çevrilmiş, hər əməli fəaliyyətində xoşməramlı missiyasını reallaşdırmışdır.***

Mehriban Əliyeva Azərbaycan Respublikası Milli Məclisinin deputatı olduğu illərdə də çox böyük işlər görərək, təmsil etdiyi dairənin sosial-iqtisadi problemlərinin həlli istiqamətində çox böyük addımlar atıb. "Siz mənə səs verməklə, sizin və balalarınızın ümidlərinin gerçəkləşməsinə səs vermisiniz" – deyən Mehriban Əliyeva öz fəaliyyəti ilə sübut etdi ki, əzmkarlıq, işləri düzgün qurmaq bacarığı olan yerdə həlli mümkünsüz sayıla biləcək heç bir problem yoxdur. Mehriban Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyətində yaddaqalan məqamlardan biri onun ədalət, humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq genişmiqyaslı amnistiya aktının qəbul edilməsi təşəbbüsü ilə çıxış etməsidir. 2007-ci il 8 mayda Mehriban xanımın hazırladığı "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında" qərar layihəsinin müzakirəsində o, öz çıxışında qeyd etmişdir ki, "Səhv etmiş, cinayət törətmiş insanlara bir daha imkan verməliyik ki, onlar azad həyata qayıtsınlar, ailələrinə, yaxınlarına qovuşsunlar, cəmiyyətdə öz yerlərini tapa bilsinlər. Ağır cinayət törətməyən insanları bağışlayaraq, biz həm onları normal həyata qaytarırıq, həm də müstəqil Azərbaycanın humanizm prinsipləri əsasında inkişaf etdiyini nümayiş etdiririk". Azərbaycan parlamentarizmi tarixində ilk dəfə olaraq Milli Məclisin deputatı tərəfindən irəli sürülmüş və geniş ictimai dəstək almış bu amnistiya aktı böyük mənəvi-əxlaqi və siyasi məzmun daşımışdır. Mehriban xanım Əliyeva bu təşəbbüsü ənənəyə çevirərək 2009 və 2013-cü illərdə də eyni müraciətlə çıxış etmiş və nəticədə 2009-cu ildə 9564, 2013-cü ildə isə təqribən 9000 nəfər azadlığa buraxılmışdır.

## "GƏNC NƏSLİN TƏRBİYƏ OLUNMASINDA MİLLİ-MƏNƏVİ DƏYƏRLƏR, ƏNƏNƏLƏR XÜSUSİ ROL OYNAYIR"

Əlbəttə ki, Mehriban Əliyevanın fəaliyyətinə nəzər salarkən 2004-cü il 10 mayda - Ümummilli Lider Heydər Əliyevin doğum günündə təsis edilmiş Heydər Əliyev Fondunun Prezidenti kimi həyata keçirdiyi layihələri diqqətə çəkməmək mümkün deyil. Fondun məqsədi milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərməkdən və s. ibarətdir. Heydər Əliyev Fondu müxtəlif sahələri əhatə edən layihələri reallaşdırmağa, dünyanın nüfuzlu təşkilatları ilə əməkdaşlıq etməyə, möhtəşəm beynəlxalq konfrans və festivallar keçirməyə müvəffəq olmuşdur. Heydər Əliyev Fondunun həyata keçirdiyi layihələr həm Azərbaycanda, həm də onun hüdudlarından kənarda ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır.

İnsanlara yardım etmək, kimsəsizə əl tutmaq prinsipi ilə yaşayan Mehriban xanım Əliyeva respublikanın işıqlı gələcəyi üçün böyük işlər görür. Fəaliyyəti ilə mərhəmətini, sadəliyini, insanlara sevgisini ifadə edən Mehriban Əliyeva "İstərdim ki, mərhəmətlilik insanlara, peşə fəaliyyətindən asılı olmayaraq, xas olsun", - deməklə istənilən bir insanın ən ali keyfiyyətləri sırasında mərhəmətin olmasını arzulayır. Azərbaycanın maddi və mənəvi irsinin YUNESKO-nun nadir əsərləri sırasına daxil edilməsi beynəlxalq əməkdaşlığın əsas göstəriciləridir. Belə ki, hazırda muğam ifaçılığı sənəti, Azərbaycan aşıq sənəti, Novruz Bayramı, Azərbaycan xalçası, Tar ifaçılığı sənəti, "Kəlağayı simvolizmi və ənənəvi sənəti" və s. YUNESKO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, Çövkən-Qarabağ Atüstü Oyun ənənəsi isə YUNESKO-nun təcili qorunmaya ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısında yer alması Azərbaycanla bu təşkilat arasında olan əməkdaşlığın davamlığını diqqətə çatdırır. Sözsüz ki, sadaladığımız nadir irsin bu siyahıya daxil edilməsində Heydər Əliyev Fondunun prezidentinin rolu xüsusidir. Azərbaycan Prezidenti İlham Əliyevin vurğuladığı kimi "Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri bizim mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynamışdır. Bizim milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması, məhz Heydər Əliyev Fondunun və Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün olmuşdur. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Bu, sadəcə olaraq sənət növü deyil, bu, bizim mədəni sərvətimizdir. Gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan belə təşəbbüslər çox böyük ictimai məna daşıyır. Eyni zamanda, dünya miqyasında muğamın məhz Azərbaycan sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun çox böyük rolu olmuşdur".

## "ÇOXSAYLI TƏDBİRLƏR NƏTİCƏSİNDƏ DÜNYA İCTİMAİYYƏTİ ÖLKƏMİZİ DAHA YAXINDAN TANIMAĞA, ÖYRƏNMƏYƏ, GÖRMƏYƏ BAŞLAMIŞDIR"

Qeyd etmək yerinə düşər ki, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində Azərbaycan mötəbər beynəlxalq tədbirlərə, o cümlədən mədəniyyət və idman tədbirlərinə uğurla ev sahibliyi edib. "Eurovision-2012" beynəlxalq mahnı müsabiqəsi Bakıda ən yüksək səviyyədə keçirilib, bu, ölkəmizin dünyada tanıdılması işinə xüsusi töhfələr verib. Eyni zamanda, 2015-ci ildə paytaxtımızda keçirilən ilk Avropa Oyunları zamanı Mehriban xanım Əliyevanın rəhbərliyi ilə çalışan "Bakı-2015" Birinci Avropa Oyunları Təşkilat Komitəsinin yüksək əzmkarlığı sayəsində Azərbaycan Avropa Oyunlarının standartlarını müəyyənləşdirdi. Oyunların möhtəşəm açılış və bağlanış mərasimləri dünyaya Azərbaycanın güclü potensialını, eləcə də yüksək nüfuzunu və qüdrətini bir daha nümayiş etdirdi. 2017-ci ildə paytaxt Bakıda keçirilən IV İslam Həmrəylik Oyunlarının Təşkilat Komitəsi də Mehriban xanım Əliyevanın rəhbərliyi ilə uğurla fəaliyyət göstərdi. Azərbaycan IV İslam Həmrəylik Oyunlarına da müvəffəqiyyətlə ev sahibliyi etdi. Beləliklə, Mehriban xanım Əliyevanın yüksək təşkilatçılıq bacarığı sayəsində ölkəmizdə uğurla keçirilən tədbirlər Azərbaycanın beynəlxalq nüfuzunun daha da artmasına müstəsna töhfələr verib. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Heydər Əliyev Fondu Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirilmişdir: "Çoxsaylı tədbirlər nəticəsində dünya ictimaiyyəti ölkəmizi daha yaxından tanımağa, öyrənməyə, görməyə başlamışdır ki, Azərbaycan müasir, dinamik inkişaf edən ölkədir. Eyni zamanda, Azərbaycan xalqı öz tarixi köklərinə çox bağlı olan xalqdır".

Mehriban xanım Əliyevanın fəaliyyəti həm ölkə miqyasında, həm də beynəlxalq müstəvidə olduqca yüksək qiymətləndirilir. Bunun göstəricisidir ki, Mehriban xanım Əliyeva indiyədək mədəniyyətin təbliği və beynəlxalq mədəniyyət mübadiləsi, elm, səhiyyə, idman, təhsil, texnologiya və ekologiyanın inkişafı işinə verdiyi töhfəyə, həmçinin ictimai, sosial və mədəni həyatda fəal iştirakına, cəmiyyətin dinamik inkişafına verdiyi mühüm töhfələrə, mədəniyyətimizin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, ümumdünya mədəni irsinin qorunub saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə müxtəlif nüfuzlu beynəlxalq mükafatlara layiq görülüb. Təltif olunduğu çoxsaylı nüfuzlu beynəlxalq mükafatlar - Fransanın "Şərəf legionu" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı, Rusiyanın Yüzillik Messenatları Beynəlxalq Xeyriyyə Fondunun "Yaqut xaç" ordeni, II dərəcəli Müqəddəs Mələksima Knyaginya Olqa ordeni onun dünyadakı nüfuzunun göstəricisidir.

## "GÜNDƏLİK FƏALİYYƏTİMİZDƏ İNSANSEVƏRLİK, MƏRHƏMƏT, QARŞILIQLI HÖRMƏT, MEHRİBANÇILIQ UNUDULMAMALIDIR"

Bu gün artıq Mehriban Əliyevanın Azərbaycanın Birinci vitse-prezidenti seçilməsindən 5 il vaxt ötür. Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı müvafiq Sərəncama əsasən, Mehriban Arif qızı Əliyeva Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunub. Təhlükəsizlik Şurasının iclasında Birinci vitse-prezidenti təqdim edən Prezident İlham Əliyev deyib: "Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi həyatında, mədəni həyatımızda mühüm və fəal rol oynayır". Bu illər ərizində görülən işlər Mehriban Əliyeva ətrafında yüksək imic formalaşdırıb. "Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribançılıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar", - deyən Mehriban Əliyeva onu da bildirmişdir ki, Mən sizi əmin edirəm ki, gələcək fəaliyyətimi məhz bu prinsiplər əsasında qurmağa çalışacağam. Bu, belə də oldu. Mehriban xanım Əliyevanın həyata keçirdiyi irimiqyaslı layihələrin hər biri humanizm prinsiplərinə söykənərək, xalqın sosial rifahının yüksəlməsinə yönəlib.

Qeyd edək ki, Mehriban xanım Əliyevanın yeni vəzifəsində ilk müşavirəsini 2017-ci il 9 mart tarixində Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış keçmiş qaçqın və məcburi köçkün ailələrinin köçürülməsinə həsr etməsi heç də təsadüfi deyil. Bu fakt bir daha təsdiqləyir ki, Azərbaycanın dövlət siyasətinin prioritet istiqaməti olan sosial sfera yeni funksional təsisat olan Birinci vitse-prezidentlik institutunun da fəaliyyətində önəmli yer tutur. Həmin müşavirədə Mehriban xanım Əliyeva çıxışında ağır vəziyyətdə, qəzalı və yararsız binalarda məskunlaşan məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı tapşırıqlarını vermişdi. Çox keçmir ki, 2017-ci ilin may ayında Qaradağ rayonunda "Ümid" yaşayış kompleksinin təməli qoyulur. Layihə üzrə hər biri 2 bloklu, 9 mərtəbəli, 1026 mənzilli 11 yaşayış binası inşa olunub və 1026 keçmiş məcburi köçkün ailəsi mənzillə təmin olundu. Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsində fəaliyyət göstərdiyi müddət əhalinin həssas təbəqələrinə qayğını təcəssüm etdirən bu kimi faktlarla zəngindir. Eyni zamanda, Birinci vitse-prezidentin iştirakı ilə 2017-ci il 3 aprel tarixində təqdim olunan "2016-cı ilin aprel döyüşlərində yaralanmış əsgər və zabitlərin yüksək texnologiyalı protezlərlə təmin edilməsi" layihəsi ciddi sosial əhəmiyyət daşıyır.

Son vaxtlar Azərbaycanın işğaldan azad olunan ərazilərinə Azərbaycan Prezidenti İlham Əliyevlə birgə səfərlərindən tarixi və əzəli torpaqlarımızla bağlı etdiyi paylaşımları hər kəsdə maraq oyadır. Belə ki, özünün "İnstaqram"dakı rəsmi hesabında Kəlbəcər və Laçın rayonlarından paylaşımlar edərək belə yazıb: "İşğaldan azad olunmuş rayonlarımıza səfərlərimiz davam edir. Bu gün biz Kəlbəcər və Laçın rayonlarında olduq. Böyük məmnuniyyətlə səfərimizin görüntülərini sizinlə paylaşıram", - yazaraq dərin hörmət və sevgilərlə, Sizin MEHRİBAN ifadəsini işlətməsi həqiqətən də onun saysız insanların qəlbində yer aldığının təzahürüdür. Son illərin tarixi gerçəkliklərinə nəzər salsaq görərik ki, O, həqiqətən də xalqla birgə yaşayır. Vətən müharibəsi dövründə bunun bir daha şahidinə çevrildik. "Azərbaycan xalqı öz Prezidentinə inanır və əmindir ki, Prezident nəyi necə, nə vaxt etmək lazım olduğunu bilir", - deyən Mehriban xanım Əliyeva bildirib ki, buna görə də biz bütün hərəkətlərimizdə və fəaliyyətimizdə həmişəkindən daha çox həmrəyik: "Şübhəsiz, bizim əsgərlərimiz bu dəstəyi hiss edirlər. Bilirlər ki, onların arxasında bütün Azərbaycan xalqı dayanır".

44 günlük müharibəni Zəfərlə başa vuran Azərbaycanda reallaşacaq layihələrə Mehriban Əliyeva öz töhfəsini verir. Möhtəşəm "Xarı Bülbül" festivalına rəhbərlik etməsi bütün dünyaya səs saldı. Azərbaycanın birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verir. Gələcək fəaliyyətinin əsasında da qeyd etdiyimiz məsələlərin daha da geniş bir planda, layihələr əsasında həyata keçirilməsi dayanacaq.

***Nəzakət ƏLƏDDİNQIZI***

# YAP Mərkəzi Qərargahında müşavirə keçirilib

**Fevralın 19-da Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərargahında müşavirə keçirilib. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyevin, sözügedən şöbənin məsul əməkdaşlarının, habelə YAP Təftiş Komissiyasının, Veteranlar Şurasının, Gənclər Birliyinin, mətbu orqanlarının, Mərkəzi Aparatın rəhbər şəxslərinin və yerli təşkilat sədrlərinin iştirakı ilə keçirilmiş tədbirdə partiyada aparılmış islahatlardan sonra qarşıda duran strateji vəzifələr geniş müzakirə olunub.**



SİA-nın verdiyi məlumata görə, ölkə ictimaiyyəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin təşəbbüsü ilə bütün sahələrdə olduğu kimi, ictimai-siyasi sahədə də aparılan islahatların şahididir. Yeni siyasi konfiqurasiyanın formalaşdırılmasını hədəfləyən bu islahatlar ölkədə həmrəylik mühitinin bərqərar olunması və siyasi münasibətlərin subyektləri arasında sağlam dialoqun formalaşmdırılmasına xidmət edir.

Qeyd olunan müşavirə ölkədə aparılan islahatların effektivliyinin təmin olunmasında YAP-ın üzərinə düşən vəzifələrin təhlilinə həsr olunmuşdur.

Müşavirədə çıxış edən YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirmişdir ki, Azərbaycan Prezidenti cənab İlham Əliyevin müdrik siyasəti nəticəsində ölkəmiz sosial-iqtisadi sahədə böyük nailiyyətlər qazanmış, beynəlxalq müstəvidə nüfuzunu əhəmiyyətli dərəcədə artırmış, Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilmişdir. Onun sözlərinə görə, 44 günlük Vətən müharibəsi nəticəsində ölkəmiz yeni bir tarixi mərhələyə qədəm qoymuşdur: "Vətən Müharibəsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev böyük strateq, Müzəffər Ali Baş Komandan və parlaq diplomat kimi bütün keyfiyyətlərini bariz şəkildə nümayiş etdirmişdir. Şanlı Qələbəmizin qazanılmasında ölkəmizdə milli birliyin, vətəndaş həmrəylinin təmin olunması əsas amillərdən biridir. Bu səbəbdəndir ki, müharibə dövründə Azərbaycan xalqı, cəmiyyəti, o cümlədən siyasi partiyaların mütləq əksəriyyəti cənab Prezidentin ətrafında sıx birləşərək şanlı qələbəmizin qazanılmasına nail olmuşdur. Bütövlükdə, Azərbaycanda yeni siyasi konfiqurasiya yaradılıb ki, bu amil ictimai-siyasi mühitdə sağlam münasibətlərin formalaşması ilə özünü ifadə edir".







uyğun olaraq Yeni Azərbaycan Partiyasının fəaliyyətinin müasir çağırışlara uyğunlaşdırılmasının vacibliyini vurğulayan Ədalət Vəliyev bildirmişdir ki, peşəkarlıq, çeviklik, sadəlik, vətənpərvərlik və milli dəyərlərə sadiqlik hər bir partiya üzvünü səciyyələndirən əsas keyfiyyətlər olmalıdır.

Xüsusi olaraq vurğulanmışdır ki, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Yeni Azərbaycan Partiyasının Sədrinin birinci müavini kimi fəaliyyəti də ölkəmizin və partiyamızın daha da güclənməsinə xidmət edəcəkdir: "Ümumiyyətlə, Birinci vitse-prezident Mehriban xanım Əliyeva Azərbaycanda savadlı, peşəkar və sağlam yeni nəslin formalaşmasına xidmət edən önəmli təşəbbüslərlə daim çıxış edir. Mehriban xanım Əliyeva mütəmadi olaraq cəmiyyətin həssas təbəqələrinin problemlərinin həll edilməsi, zəngin mədəniyyətimizin, multikulturalizm ənənələrimizin təbliğ olunması, müxtəlif istiqamətlərdə yeni layihələrin reallaşdırılması ilə bağlı önəmli addımlar atır. Prezidentimiz İlham Əliyevin ən yaxın silahdaşı olan Mehriban xanım Əliyeva bütün varlığı və əzmkar fəaliyyəti ilə dövlətçiliyimizin qorunması və qüdrətlənməsi naminə uğurla fəaliyyət göstərir".

YAP-ın ideoloji fəaliyyəti və bu fəaliyyətin strateji istiqamətlərindən söz açan Ədalət Vəliyev qeyd etmişdir ki, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyələndirilməsi və milli həmrəyliyin qorunması istiqamətində aparılan təbliğat işlərinin mərkəzində 44 günlük Vətən müharibəsində əldə olunmuş şanlı Zəfər durmalıdır. "İkinci Qarabağ müharibəsinin nəticəsində Azərbaycan Ermənistanı məğlub etdi və işğala son qoydu. Əldə olunmuş Qələbənin nəticəsində Azərbaycan xalqı milli tarixinin ən möhtəşəm səhifəsini yaşayır" - kimi fikri səsləndirmiş Administrasiyanın rəsmisi xüsusi olaraq vurğulamışdır ki, "Azərbaycan xalqının tarixinə yazılmış bu Böyük Qələbə ilə bağlı qərəzli və məkrli informasiya manipulyasiyalarının qarşısı alınmalı, habelə xalqa qarşı olan bu cür xain hərəkətlər öz layiqli cavablarını almalıdır".





YAP Sədrinin müavini ötən ilin mart ayında keçirilən Yeni Azərbaycan Partiyasının VII Qurultayının ölkəmizin ictimai-siyasi həyatında mühüm hadisə olduğunu qeyd edərək diqqətə çatdırmışdır ki, qurultayda partiyamızın Sədri, Prezident İlham Əliyevin proqram xarakterli nitqi YAP üzvləri qarşısında yeni vəzifələr müəyyənləşdirir. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın YAP Sədrinin birinci müavini təyin olunması partiyamız və bütövlükdə cəmiyyət üçün mühüm əhəmiyyət kəsb etməklə yanaşı, partiyamızın və dövlətimizin daha da güclənməsinə xidmət edən mötəbər hadisədir.

Hazırda Azərbaycanın inkişafının yeni mərhələsinin başlandığını, qarşıda böyük vəzifələrin dayandığını deyən Tahir Budaqov söyləmişdir ki, Yeni Azərbaycan Partiyası bu vəzifələrin yerinə yetirilməsi üçün fəaliyyətini yeni, müasir tələblərə uyğun olaraq davam etdirməlidir. Yeni Azərbaycan Partiyası ölkənin ictimai-siyasi həyatında və siyasi münasibətlərin demokratikləşməsi proseslərində aparıcı rolunu qorumalı və daha fəal mövqe tutmalıdır. Bu baxımdan, partiyamızın yeni Nizamnaməsi və Proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikası Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev tədbir iştirakçılarını salamlayaraq öz giriş nitqini sahənin əsas strateji prioritetlərini müəyyən edən Prezident İlham Əliyevin sözləri ilə başlamışdır: "Dövlət təşəbbüslərinin davamlılığı, çoxpartiyalı sistemin formalaşması, islahatçı kursa sadiqlik, ölkədə siyasi fəaliyyət üçün münbit şəraitin dəstəklənməsi, demokratik ənənələrin inkişafı və s. bu kimi strateji prioritetlərin icrası prosesində siyasi partiya və vətəndaş cəmiyyəti institutları fəal mövqe tutmalıdır".

Prezident İlham Əliyevin sözlərini şərh edərək Prezident Administrasiyasının rəsmisi bildirmişdir ki: "Cənab Prezidentin bu fikirləri əslində siyasi partiyalara və vətəndaş cəmiyyəti institutlarına bir çağırışdır. Bu cür yanaşma, eyni zamanda, konstruktiv əməkdaşlığa dəvətdir. Siyasi proseslərin subyektləri arasında daha təkmil və daha universal münasibətlər məhz sağlam və konstruktiv əməkdaşlığın nəticəsində formalaşa bilər. Bu mənada, partiyanın yerli təşkilatlarının səmərəli fəaliyyəti sayəsində siyasi dialoqla bağlı olan bütün təşəbbüslər bölgələrdə öz inkişafını tapmalıdır".

Daha sonra hər bir ölkənin strateji resursu hesab olunan siyasi sabitliyin qorunması zərurətindən söhbət açan Ədalət Vəliyev dayanıqlı inkişafın təmin olunması prosesində ölkədə yaranmış həmrəylik mühitinin inkişafına xidmət edən Prezident İlham Əliyevin önəmli təşəbbüsləri və əldə olunmuş nəticələr haqqında məlumatları tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

Ötən ilin 5 mart tarixində keçirilmiş YAP-ın VII Qurultayını xatırladan Prezident Administrasiyanın şöbə müdiri bildirmişdir ki, sözügedən Qurultay partiyanın inkişaf tarixinin mahiyyət etibarı ilə yeni mərhələsinin başlanğıcı kimi qiymətləndirilməlidir. Belə ki, Prezident İlham Əliyevin islahatlar kursuna

Eyni zamanda vurğulanmışdır ki, partiyanın yerli təşkilatları tərəfindən qazi və şəhid ailələrinə xüsusi diqqət ayrılmalı və dövlətin mövcud istiqamətdə görülən işlərdə partiya üzvləri yaxından iştirak etməlidir. Qazi və şəhid ailələrinə göstərilən qayğı kontekstində Prezident İlham Əliyevin təşəbbüsü ilə yaradılmış "YAŞAT" Fondu və Qarabağ Dirçəliş Fondunun fəaliyyəti xüsusi olaraq qeyd olunmuşdur.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin: "Xalqın birinci xidmətçisi mənəm" sözlərini xatırladan Administrasiyanın şöbə müdiri bildirmişdir ki, YAP-ın yerli təşkilatları cəmiyyətə açıq olmalı, onların rəhbərləri isə bölgələrdə öz ictimai-siyasi fəallığı ilə vətəndaşların rəğbətini qazanmalıdırlar. Bu mənada təyin olunmuş yerli təşkilatların sədrləri müasir siyasi proseslərin bütün xüsusiyyətlərini nəzərə alaraq, öz açıq və demokratik yanaşmaları ilə yanaşı, mütləq olaraq fəaliyyətlərində ictimaiyyətlə əlaqələr məsələlərinə də xüsusi diqqət ayırmalıdırlar.

Müşavirədə qarşıda dayanan vəzifələrlə bağlı geniş fikir mübadiləsi aparılmışdır.

# Gənclər Xocalı soyqırımı haqqında nə düşünür?

Soyqırım bəşəriyyətin heç sağalmayan yarasıdır. Bu yaralar hadisə şahidlərində dərin iz buraxır. Xocalı faciəsini törətməklə ermənilər xalqımızı qorxutmaq, mübarizə əzmini qırmaq, tarixi torpaqlarımızın bir qisminin itirilməsi ilə barışmağa məcbur etmək istəyirdilər. Bəs, gəlin görək Xocalı soyqırımı gənclərin gözündə necə canlanır? SİA olaraq gənclər təşkilatları arasında sorğu keçirdi.

**"İrəli" İctimai Birliyinin mətbuat katibi, İdarə Heyətinin üzvü Əfsanə Şükürova:**  "Azərbaycan xalqı 30 il öncə böyük bir faciə yaşadı. Fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş SSRİ-nin Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının köməyi ilə Xocalı şəhərində amansız cinayətlər törətdi, şəhər yerlə yeksan edildi. Soyqırımı nəticəsində 106-sı qadın, 63-ü uşaq və 70-i isə qoca olmaqla 613 nəfər xüsusi qəddarlıqla öldürüldü, 1275 insan əsir və girov götürülərək işgəncələrə məruz qaldı. Qırğın zamanı 487 nəfərə müxtəlif dərəcəli bədən xəsarətləri yetirildi. Həmçinin 8 ailə tamamilə məhv edildi, 130 uşaq valideynlərindən birini, 25 uşaq isə hər iki valideynini itirdi.



Bütün bunları erməni xislətinin təzahürü kimi qeyd edə bilərik. Çünki bundan öncə də yaxın 200 ildə Azərbaycan xalqına qarşı etnik tənzimləmə və soyqırımı siyasəti aparılıb. Lakin bu onlar arasında ən dəhşətlilərindən idi.

Birinci Qarabağ müharibəsinin ən faciəvi səhifələrindən biri də məhz Xocalı oldu. Bu qanlı hadisədən sonra torpaqlarımızın beşdəbiri işğal altına düşdü. Xocalı faciəsinə hüquqi və siyasi qiymətin verilməsi həmin dövrdə rəhbərlik edən siyasi hakimiyyətin öhdəliyinə düşsə də, yalnız Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra bu istiqamətdə addımlar atılmağa başladı. 1994-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi 26 fevral tarixini Xocalı soyqırımı günü kimi elan etdi.

Prezident İlham Əliyevin ölkə rəhbərliyi dövründə də erməni qəsbkarlarının törətdiyi cinayətin dünyaya çatdırılması istiqamətdə mühüm irəliləyişlər əldə edilib. Ölkə başçısı daim öz çıxışlarında erməni siyasətinin mahiyyətini üzə çıxarır, bu soyqırım haqqında fikirlərini belə ifadə edir: "Xocalı faciəsi erməni millətçilərinin yüzilliklər boyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırım və etnik tənzimləmə siyasətinin qanlı səhifəsidir. Bu soyqırımı törətməklə düşmənin məqsədi Azərbaycan xalqını sarsıtmaq, suverenlik və ərazi bütövlüyü uğrunda mübarizədən çəkindirmək və torpaqlarımızı zorla ələ keçirmək olsa da, bu ağır faciə xalqımızı daha da mətinləşdirmiş, qəhrəman oğul və qızlarımızı müqəddəs Vətən və milli dövlətçiliyimiz naminə qətiyyətli və mütəşəkkil səfərbər edib. Məqsədimiz Xocalı faciəsinə beynəlxaq huquqi-siyasi qiymət verilməsinə, onun təşkilatçılarının, ideoloqlarının və icraçılarının dünya ictimaiyyətinin gözündə ifşasına və cəzalandırılmasına nail olmaqdır".

Xocalı soyqırımdan danışarkən, İkinci Qarabağ müharibəsini vurğulamasaq olmaz. Cənab Prezidentin dövründə yetişən gənc nəslin ümummilli məsələlərdə fəallığı və torpaqlarımızın işğaldan azad edilməsi kimi böyük bir missiyanın öhdəsindən uğurla gəlməsi xalqımızın azadlığı və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin fonunda Xocalı şəhidlərinin də ruhunu şad etdi. Azərbaycan xalqı artıq qalib xalq kimi bu ədalətin bərpərar olunması istiqamətində öz səylərini əsirgəmir, gənclərimiz hər il informasiya mübarizəsində Xocalı soyqırımının dünya ictimaiyyətinə çatdırılmasında fəal iştirak edirlər. "İrəli" İctimai Birliyinin üzvləri də proseslərdə yaxından iştirak edərək, haqq işimizin icrasında öz dəstəklərini göstərirlər.

Bu il Xocalı soyqırımının 30-cu ildönümü ilə əlaqədar "İrəli" İctimai Birliyinin təşkilatçılığı ilə bir çox məktəb və regionlarda faciə qurbanlarına həsr olunmuş "25 Böyüməyən Uşaq" filminin nümayişi həyata keçiriləcək. Birlik tərəfindən lentə alınan filmdə Xocalı soyqırımı ilə bağlı reallığı əks etdirən görüntülər, eyni zamanda faciə zamanı hər iki valideynini itirmiş 25 uşağın acı dolu uşaqlıq illərinə toxunulub. Bu tədbirlər sırasında hər il olduğu kimi bu il də "İrəli" gəncləri tərəfindən Xocalı faciəsinin ildönümünə həsr olunmuş sosial şəbəkə aksiyası həyata keçirəcək. Ümumilikdə 500-dən çox gəncin iştirakı ilə baş tutan kampaniya çərçivəsində tvitter sosial şəbəkəsi üzərindən Xocalı həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində xarici dillərdə maarifləndirici, infoqrafik tvitlərin göndərilməsi nəzərdə tutulub. Həmçinin, "İrəli" gəncləri xaricdə yaşayan həmyerlilərimizin də iştirakı ilə üzərində "Justice For Khojaly" yazılan vərəqlərlə şəkil çəkdirərək kampaniya üçün nəzərdə tutulmuş heşteqlərlə sosial şəbəkə hesablarında paylaşım edəcək, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması üçün bütün mövcud imkanlardan istifadə edəcəklər.

Bu fəaliyyətlərlə yanaşı digər tədbirlərin də icrası nəzərdə tutulub. Qeyd edim ki, Birlik olaraq hər il tariximizin qanla yazılmış səhifəsi olan Xocalı hadisələrinin beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində müntəzəm olaraq tədbirlər həyata keçiririk. Tədbirlərin keçirilməsində məqsəd Azərbaycanı parçalamaq arzusunda olan erməni təcavüzkarlarının xalqımızın başına gətirdiyi müsibəti dünya ictimaiyyətinə çatdırmaq, faciə haqqında məlumatsız olan şəxsləri insanlığa qarşı törədilmiş bu cinayət barədə məlumatlandırmaqdır. "İrəli" İctimai Birliyi olaraq gənclərimizi bütün fəaliyyətlərə aktiv şəkildə qoşulmağa dəvət edirik.

İnanırıq ki, cənab Prezident İlham Əliyevin rəhbərliyi altında bu qanlı cinayəti törədənlərin cəzalandırılmasına nail olunacaq, Azərbaycan həqiqətlərinin bütün dünyaya çatdırılması istiqamətində daha da böyük irəliləyişlər əldə edəcəyik".

**"Böyük Qayıdış" Gənclər Təşkilatının layihələr üzrə meneceri Ayxan Allahverdiyev:** "1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş verən bu soyqırım, Azərbaycan tarixinin ən qanlı səhifələrindən biridir. Millətimizin, ölkəmizin yaddaşına qara, qanlı hərflərlə yazılan bu faciə, mənfur erməni birləşmələrinin öz niyyətlərini - azərbaycanlıları yer üzündən silmə niyyətlərinin bariz nümunəsidir.



Uşaq, yaşlı, qadın, cavan demədən dinc insanları şəhid etdilər. Ancaq nə qədər olursa-olsun, millətimiz heç vaxt yıxılmadı, xalq olaraq hər zaman bir olduq, birlikdə güclü olduq. Səbr etdik, dirəndik, 30 ildən sonra gücümüzü göstərdik. Qalib xalq, qalib ordu olaraq öz dədə-baba torpaqlarımıza döndük, şəhilərimizin qisasını aldıq, qutlu vətən qanını yerdə qoymadıq. Nə xoşdur ki, qazanılan qələbədə bir əsgər olaraq, kiçik də olsa mənim də payım oldu. Soydaşlarımızın qanını, onların qisasını almaq mənə də nəsib oldu. Bir Azərbaycan gənci olaraq, bizim üzərimizə düşən vəzifələri hər zaman layiqincə yerinə yetirməli olduğumuzu qeyd etmək istərəm. Tariximizi yaşatmaq, haqq səsimizi dünyaya çatdırmaq, hər bir gəncin başlıca vəzifəsidir. Bizlər aldığımız bu öhdəliyi, layiqincə yerinə yetirsək, o zaman bütün düşmənlərə sinə gərər, gələcək nəsillərə də bu tarixi ötürər və bir daha xalqımızın başına bu cür faciələrin gəlməsinə əngəl olarıq".

**Bakı Dövlət Universitetinin Tələbə Həmkarlar İttifaqı Komitəsinin (THİK) sədri Hacıbaba Mustafayev:** "Mən, gənclərlə çalışan biri olaraq



qeyd etmək istəyərəm ki, gənclərin nəzərində Xocalı soyqırımı daima önəmli olmalıdır. Bu onların heç vaxt unutmayacağı tarixi hadisədir. Biz gənclər üçün Xocalı soyqırımı Qarabağ müharibəsinin ən qanlı səhifəsidir.

Gənclərin dərk etməsi vacib olan şey budur ki, üzərimizə düşən məsələ Xocalı hadisəsini daim təbliğ etmək, Xocalı qurbanlarını həmişə diqqətdə saxlamaq və xatırlamaqdır. Biz gənclərin əvvəlki nəsillərdən böyük fərqimiz var. Bu fərq odur ki, bizim texnologiyaya çıxışımız var və xarici dil biliklərinə malikik. Bundan əlavə biz, THİK olaraq bu il Xocalı hadisəsi ilə bağlı sənədli film hazırladıq. Film üçün Xocalı hadisənin şahidlərini dindirdik. Bu sənədli filmi xarici film festivalına göndərəcəyik".

***Ayşən Vəli***

# “Koçaryan və Sarkisyan beynəlxalq məhkəməyə verilə bilər”



“Qarşıdan 26 fevral - Xocalı soyqırımının 30-cu il dönümü gəlir. Düz 20 il bundan əvvəl azərbaycanlılara qarşı, məhz müsəlman türk olduqları üçün erməni caniləri, cinayətkarları tərəfindən 20-ci əsrin insanlığa qarşı ən böyük cinayəti törədilib. Erməni caniləri körpələrə uşaqlara, qadınlara və qocalara amansızcasına divan tutmaqla məhz Azərbaycan xalqının gözünü qorxutmaq və Azərbaycan torpaqlarına qarşı irəli sürdükləri əsassız iddialarla Azərbaycan xalqının və dövlətinin müqavimət göstərmək imkanlarını sarsıtmaq və ona zərbə vurmaq məqsədi daşıyırdılar”. Bunu politoloq Anar Əliyev ”Səs” qəzetinə açıqlamasında bildirib.

Onun sözlərinə görə, burada yüz illiklərə söykənən azərbaycanlı, türk nifrəti eyni zamanda, erməni kilsəsi tərəfindən erməni beyninə yeridilən saxta ideologiya, ali irq, ali millət bütün mədəni tarixi nailiyyətlərin məhz bu xalqa aid olması ilə bağlı yanlış saxta təsəvvürlərin, ideologiyaların təsiri altında böyüyən insanların qonşularına xüsusilə də, onlardan daha yüksəkdə mədəni, tarixi, iqtisadi insani keyfiyyətləri ilə dayanan topluma, xalqlara qarşı nifrəti ilə bağlı idi: ”Hesab edirəm ki, erməni vəhşiliyi, qəddarlığı, soyqırımı ilə bağlı Azərbaycan dövləti çox ciddi siyasi mübarizə meydanı aça bilib və nəticə etibarı ilə dünya səviyyəsində bir sıra dövlətlərin və parlamentlərin Xocalı soyqırımını azərbaycanlılara qarşı ermənilər tərəfindən soyqırımı kimi tanıdılmasına nail olubdur. Bu prosesdə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın başlatdığı və dünya səviyyəsində ictimai rezonans doğuran ”Xocalıya Ədalət” kampaniyasını xatırlatmaq istəyirəm. Bu kampaniya çərçivəsində keçmiş sovet respublikalarında, Avropa dövlətlərində, Amerikada, Türkiyədə, şərq ölkələrində çox böyük kampaniya həyata keçirildi və keçirilir. Bu proseslərin nəticəsində dünyanın bir sıra dövlətləri və xalqları erməni kimliyi, erməni terrorizmi və terrorizmin mahiyyəti və ermənilərin azərbaycanlılara qarşı törətdiyi soyqırımın mahiyyəti və miqyası ilə tanış ola bilirlər”.

A.Əliyev onu da bildirdi ki, törədilən Xocalı soyqırımına görə, Azərbaycan tərəfindən ermənilərə, Ermənistana və onun cinayətkar rejimlərinə qarşı xüsusilə də, Koçaryana və Sarkisyana qarşı beynəlxalq məhkəmədə iddia qaldırıla bilər: ”Artıq bildiyimiz kimi Azərbaycan Respublikasının Baş prokurorluğu tərəfindən Koçaryan və Sarkisyana qarşı cinayət işi qaldırılıb. Azərbaycan öz haqq mübarizəsini beynəlxalq səviyyədə, beynəlxalq məhkəmələr səviyyəsində davam etdirib Ermənistanın və erməni cinayətkarlarının cəzalandırılmasına nail ola bilər və olmalıyıq”.

*Gülyana*

## Putin qondarma ”Luqansk və Donetsk Respublika”larını müstəqil dövlət kimi tanıdı!

Rusiya Ukrayna ərazisindəki qondarma ”Luqansk və Donetsk Respublika”larını müstəqil dövlətlər kimi tanıyıb. Bu barədə Rusiya Prezidenti Vladimir Putin canlı yayımda xalqa müraciətində deyib. O qeyd edib ki, ABŞ Rusiyadan ancaq düşmən obrazı yaradır. ”ABŞ Rusiyadan ancaq düşmən obrazı yaradır, çünki ona belə böyük bir ölkə lazım deyil”, - Putin vurğulayıb.



Putin qeyd edib ki, 2000-ci ildə Prezident Bill Klintondan ABŞ-ın Rusiya Federasiyasının NATO-ya qəbuluna necə reaksiya verəcəyini soruşub. Onun sözlərinə görə ABŞ rəhbərinin buna reaksiyası təmkinli olub.

Qeyd edək ki, bu qərardan əvvəl Rusiya Prezidenti Vladimir Putin Fransa Respublikasının Prezidenti Emmanuel Makron və Almaniya Federativ Respublikasının Federal Kansleri Olaf Şolz ilə telefon danışığı aparıb. Vladimir Putin Rusiya Federasiyası Təhlükəsizlik Şurasının Donbass ətrafında mövcud vəziyyəti Dövlət Dumasının qondarma ”Donetsk və Luqansk Xalq Respublikaları”-nı tanınması ilə bağlı qətnaməsi kontekstində nəzərdən keçirən geniş tərkibli iclasının nəticələri barədə məlumat verib.

Bütün bunları nəzərə alaraq, Rusiya prezidenti yaxın vaxtlarda müvafiq fərman imzalamaq niyyətində olduğunu bildirmişdi.

Fransa prezidenti və Almaniyanın federal kansleri hadisələrin belə inkişafından məyus olduqlarını bildiriblər. Eyni zamanda, onlar əlaqələri davam etdirməyə hazır olduqlarını qeyd ediblər.

# YAP Gənclər Birliyi Xocalı ilə bağlı çağırış etdi

**Ermənistan silahlı qüvvələri tərəfindən törədilən Xocalı soyqırımından 30 il ötür. SİA xəbər verir ki, faciənin dünya ictimaiyyətinin diqqətinə çatdırılması, soyqırım həqiqətlərinin tanıdılması məqsədi ilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın müəllifi olduğu ”Xocalıya ədalət!” kampaniyası çərçivəsində YAP Gənclər Birliyi tərəfindən ”Twitter” sosial şəbəkəsində aksiya həyata keçiriləcək.**




Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) Gənclik Qollarının da dəstək verdiyi Aksiya çərçivəsində müxtəlif dillərə tərcümə olunan Xocalı Soyqırımı ilə bağlı tarixi faktlar, həqiqətlər, o cümlədən hazırlanan posterlər 26 fevral 2022-ci il tarixində #JusticeforKhojaly, #KhojalyGenocide, #Khojaly30, #Khojaly613, #HocalıKatliamı heştəqləri ilə ”Twitter” sosial şəbəkəsində paylaşılacaq. Çoxminlik YAP üzvlərinin Respublikamızın bütün şəhər və rayonlarından, o cümlədən qardaş Türkiyə Respublikasının gənclərinin qoşulacağı aksiya 26 fevral tarixində dünya ictimaiyyətinin diqqətinə Xocalı soyqırımına cəlb etmək, tarixi həqiqətlərin təbliği məqsədini daşıyır.

Hər bir Azərbaycan vətəndaşının ümummilli vəzifəsi kimi qəbul etdiyimiz bu prosesə fəaliyyət sahəsindən, mövqeyindən asılı olmayaraq bütün təşkilatları və şəxsləri qoşulmağa dəvət edirik.

Aksiyanın həyata keçirilməsi məqsədi ilə xüsusi olaraq hazırlanmış materialları və təlimatı əldə etmək üçün YAP Gənclər Birliyinin sosial şəbəkələrdəki səhifələrinə, o cümlədən gencler_birliyi@yap.az elektron ünvanına müraciət edə bilərsiniz.

# 80 illik ömrün şərəfli həyat hekayəsi

**Ömrə naxış salınan izlərin əlvanlığında insan kimliyini təsdiqləyir və bu aləmdə varlıq olaraq mövcudluğunu dərk edir. Həyat yoluna salınan körpülər üzərindəki hərəkətin, izin ruhi və maddi dünyanda sənin varlığını tamamlayır. Ömrünü böyük işlərə həsr edib, daim tələsib istək və arzunu həyata keçirmək məqsədində olan insanlar Tanrının bəxş etdiyi ömür yolunda ülviləşir, paklanır, mənən təmizlənir, bir ömrə neçə-neçə ömürləri daxil edərək cəmiyyət üçün gərəkli bir simaya çevrilir. Daxilindəki bacarıq və qabiliyyəti üzə çıxarıb, ağlın diqtəsi və məntiqlə hərəkət edərək cəmiyyətdə imicini formalaşdıra bilirsən.**



80 il, 80 bahar, 80 xəzan, 80 qış yaşamış Elmira Rəsulova kimi. Bir ömrün zaman məsafəsindən boylanan illərdir bu onilliklər. Bu illərdə Elmira xanımın tərcümeyi-halında dəyərli məqamlar var. Müharibə illərində həmının əsgər anası çağırdığı Elmira Rəsulova 1942-ci ildə Bakıda doğulub. Orta məktəbi bitirdikdən sonra peşə məktəbində təhsil alıb. Ailə qurandan bir müddət sonra Gənc Tamaşaçılar Teatrında işə düzəlib. Teatr mühiti, tanınmış qələm sahibləri və səhnə ustaları ilə ünsiyyət Elmira xanımın həyatında, dünyagörüşündə silinməz izlər buraxıb. Elmira Rəsulovanın atası Səttar kişi İkinci Dünya müharibəsi illərində hərbi müstəntiq işləyib. Anası Zəhra xanım alman faşistlərinə qarşı müharibənin qaynar vaxtlarında hərbi hospitalda şəfqət bacısı kimi çalışıb. Qanlı Yanvar hadisələri zamanı Elmira xanım vətənpərvərlik nümayiş etdirərək, öz köməyini əsirgəmədi. Yaralanıb hospitalda və xəstəxanalarda yatanların köməyinə tələsib. Gecə-gündüz onların başının üstündən əskik olmayıb. Erməni işğalçılarına qarşı şiddətli döyüşlər gedən zaman könüllü olaraq cəbhəyə yollananların sayı artırdı.

Mərkəzi hərbi hospitala da hər gün ağır yaralılar gətirirdilər. O vaxt Elmira xanım cərrahiyyə şöbəsində kiçik tibb bacısı idi. Bir gün Ağdam rayonundan olan yaralının həyatını xilas etmək mümkün olmadı. İgid döyüşçünü dəfn etmək üçün doğulduğu kəndə aparanları müşayiət etmək Elmira xanıma tapşırıldı. Elə o vaxtdan Elmira Rəsulovanın ”əsgər anası həyatı” başlandı. Elmira ana Ağdamın Qaradağlı kəndindəki səyyar hospitalın cərrahiyyə şöbəsində kiçik tibb bacısı kimi fəaliyyətini davam etdirdi. Mahrızlıda, Zəngişalıda yaralıların dadına çatdı. Zəngişalıda düşmənlə üzbəüzdəki postumuza qədər gedib çıxdı. Güllə, mərmi yağışları altında yaralılarımıza ilk tibbi yardım göstərirdi. Qırx günlük ağır döyüşlərdən sonra Qaradağlıdakı səyyar hospital Sarıcalıya köçdü. Burada da Elmira ana yaralı döyüşçülərimizin tez sağalması üçün gecə-gündüz onların qulluğunda durdu. Hər dəfə sağalıb cəbhəyə dönən döyüşçüləri xeyir-duası ilə yola salanda elə bil dünyanı Elmira xanıma bağışlayırdılar. Vətən qarşısındakı xidmətlərinə görə Elmira Rəsulova 1994-cü ildə ”Hərbi xidmətlərə görə” medalı ilə, 1995-ci ildə ”Azərbaycan bayrağı” ordeni ilə təltif edilib. Böyük qürur və iftixar hissi ilə bildirdi ki, hər iki mükafatı ona şəxsən Ulu Öndər Heydər Əliyev təqdim edib.

Elmira Rəsulovanın oğlu Dadaş Hümbətov hərbi təyyarəçidir. Nəvəsi Şahin də atasının yolunu seçib, Aviasiya Akademiyasında təhsil alıb. Elmira xanım hər zaman Silahlı Qüvvələrimizin bugünkü qüdrətindən qürur duyurdu. O, müharibəyə nifrət edir, istəmirdi ki, bir də insan qanı axıdılsın, yurdlar xarabalığa dönsün. Ömrün mənasını vətənə xidmətdə görən Elmira xanıma 44 günlük Vətən müharibəsində qazanılan Zəfərin sevincini yaşamaq nəsib oldu. Qəhrəman ana Elmira xanım uzun sürən xəstəlikdən sonra 20 fevral 2022-ci ildə 80 yaşında dünyasını dəyişdi.

”Səs” media qrupu adından ”Hərbi xidmətlərə görə” medalı və ”Azərbaycan bayrağı” ordeni ilə təltif edilmiş Elmira Rəsulovanın vəfatı ilə bağlı ailəsinə başsağlığı verir və Allahdan rəhmət diləyirik.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İnkişaf və tərəqqi ünvanı: Naxçıvan!

## Naxçıvan Muxtar Respublikasının yaranmasının 98-ci ildönümündə



Fevralın 9-u Naxçıvan Muxtar Respublikasının yaranmasının 98-ci ildönümü tamam oldu. Ümummilli Liderimiz Heydər Əliyev deyirdi: "Naxçıvanın muxtariyyəti tarixi hadisədir. Bu, çətin bir dövrdə böyük mübarizənin nəticəsi olubdur". Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov respublikanın yaranmasının 98-ci ildönümündə çıxışında bildirib ki, Ümummilli liderimiz Heydər Əliyev deyirdi ki, Naxçıvanın muxtariyyətinin 2 mərhələsi xüsusilə çətin və mürəkkəb dövr olmuşdur. Bunlardan biri 1920-1924-cü illəri əhatə edən muxtariyyətin yaranması, digəri isə 1990-1993-cü illərdə muxtariyyətin qorunub saxlandığı dövrdür. Naxçıvan 1990-1993-cü illərdə Ümummilli Liderimizin də dediyi kimi "Taleyin ümidinə buraxılmış tənha ada"nı xatırladırdı. Doğrudan da, əgər 1920-1924-cü illərdə böyük mübarizənin nəticəsində muxtariyyət statusu qazanılmışdısa, 1990-1993-cü illərdə isə Naxçıvan taleyin ümidinə buraxılmış tənha bir adanı xatırladırdı. Ölkə Prezidentinin də dediyi kimi, "Heydər Əliyev öz vətəninə, doğulduğu yerə - Naxçıvana gəldi. Onun gəlişi Naxçıvanı bəlalardan qurtardı. Naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı qorudu".

### NAXÇIVAN VƏ HEYDƏR ƏLİYEV AMİLİ AYRILMAZ FAKTDIR

Zəfər dolu tarix yazan, Ulu Öndərimizin ideyalarının işığında sürətlə inkişaf edən və yüksələn əlverişli təbii-coğrafi mövqeyi, Şərqlə Qərbi birləşdirən qədim İpək yolunun üstündə yerləşməsi bu diyarı fatehlərin, böyük dövlətlərin geosiyasi maraqlarının kəsişdiyi regiona çevirib. Ərazisi dəfələrlə işğal olunsa da, əldən-ələ keçsə də, qədim yurdumuz heç vaxt məğlubiyyətlə barışmayıb, sonda zəfər qazanıb, xalqımıza məxsus mədəniyyəti, adət-ənənələri, ən vacibi isə, tarixi ərazisinin böyük bir hissəsini qoruyub saxlaya bilib, müasir dövrümüzədək gətirib çıxarıb.Müasir Müstəqil Azərbaycan Respublikası kimi, onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının mövcudluğu və bugünkü inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. 1991-ci il sentyabrın 3-də Muxtar Respublika Ali Məclisinin fövqəladə sessiyasında qədim diyarın sakinlərinin təkidli tələbi və arzusu ilə Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsini öhdəsinə götürdü.

1992-ci ilin noyabrında Naxçıvan şəhərində Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının əsası qoyuldu. Həmin dövrdə Naxçıvan bütün ölkədə milli-demokratik hərəkatın mərkəzi, möhkəm dövlətçiliyin, siyasi sabitliyin mövcud olduğu bir bölgə idi. XX əsrin 90-cı illərinin əvvəlində, SSRİ-nin süqutu ərəfəsində yaranmış şəraitdən istifadə edən Ermənistan Azərbaycana qarşı açıq silahlı təcavüzə başlayanda Naxçıvan Muxtar Respublikası da çətin sınaq qarşısında qaldı. Diyarı Azərbaycanın əsas ərazisi ilə birləşdirən yollar bağlandı, Naxçıvan blokada şəraitində yaşamağa başladı. Azərbaycan o vaxtkı rəhbərliyinin muxtar respublikanın taleyinə laqeyd münasibəti vəziyyəti daha da çətinləşdirdi.1993-2003-cü illərdə də Ulu Öndər Heydər Əliyev bu diyardan qayğısını əsirgəmədi. Onun Azərbaycana ikinci dəfə rəhbərliyi dövründə muxtar respublikanın sosial-iqtisadi inkişafı ilə bağlı dövlət səviyyəsində qərarlar qəbul olundu, Naxçıvanı gözləyən təhlükələrdən və bəlalardan xilas etdi. Heydər Əliyev müdrikliyi, xalqa inamı, Heydər Əliyev-xalq birliyi Naxçıvanı xilas etdi.



Ulu öndər Heydər Əliyevin bütün fəaliyyəti muxtar respublikanın düşdüyü ağır vəziyyətdən çıxarılmasına, sərhəd kəndlərinin və muxtar respublikanın təhlükəsizliyinin təmin edilməsinə, sosial vəziyyətlərinin yaxşılaşdırılmasına, iqtisadi islahatların həyata keçirilməsinə, Naxçıvandan rus qoşunlarının çıxarılması və Milli Ordunun formalaşdırılmasına, Naxçıvanın blokadadan çıxarılmasına və beynəlxalq əlaqələrin yaradılmasına, qanunsuz silahlı dəstələrin ləğv edilməsinə və digər vacib məsələlərin həll edilməsinə yönəlmişdir. Qarşıya qoyulan bütün məsələlər Heydər Əliyev uzaqgörənliyi, cəsarət və qətiyyəti sayəsində həll edildi, Naxçıvan qorundu, onun düşmən əlinə keçməsinə imkan verilmədi. Ölkə Prezidenti İlham Əliyevin qeyd etdiyi kimi, naxçıvanlılar Heydər Əliyevi qorudular, Heydər Əliyev isə Naxçıvanı xilas etdi.

Müstəqillik illərində, xüsusilə 1995-2019-cu illər, yeni təqribən 25 il müddəti sosial-iqtisadi inkişaf baxımından Naxçıvan Muxtar Respublikasının tarixində mühüm mərhələ təşkil edir. Blokadanın yaratdığı çətinliklərə baxmayaraq, muxtar respublikanın daxili imkanlarından və ehtiyat mənbələrindən səmərəli istifadə olunmuş, həyata keçirilən sabitləşmə, dönüş və inkişaf konsepsiyası iqtisadi və sosial müstəvidə yüksələn xətlə davam etdirilmiş, iqtisadiyyatda müsbət meyllər daha da möhkəmləndirilmişdir. İqtisadi və sosial sahədə bütün makroiqtisadi göstəricilərin yüksəlişi təmin edilmiş, ümumi daxili məhsulun (ÜDM) həcmi 1994-cü ildə 37.288 min manat olduğu halda, 2019-cuu ildə 140 dəfə artaraq 2.839 milyon manat olmuşdur. Onun bir nəfərə düşən həcmi 6202 manat təşkil edir. Muxtar respublika sənayesinin əsas hissəsini emal sənayesi təşkil etsə də, əvvəllər muxtar respublika üçün o qədər də xarakterik olmayan maşınqayırma, metallurgiya, kimya, mədənçıxarma, mebel, eləcə də yüngül və yeyinti sənayesi, kənd təsərrüfatı təyinatlı 900-ə yaxın istehsal və xidmət sahələri də yaradılmışdır.

Muxtar respublikada 90-cı illərin ortalarında 56 sənaye müəssisəsi olduğu halda, 2015-ci ildə 438-ə çatmışdı. 2013-cü ildə sənaye 29 faizlik payla ÜDM-in tərkibində ilk yerə çıxmışdır. 2019-cu ildə 1 milyard 15 milyon manatlıq sənaye məhsulu istehsal edilmiş, 442 sənaye müəssisələrində 16.634 nəfər işçi çalışmış, 2010-cu ildə muxtar respublikada ilk dəfə olaraq minik avtomobillərinin istehsalını həyata keçirən "Naxçıvan Avtomobil Zavodu" MMC fəaliyyətə başlamışdır.

### PREZİDENT İLHAM ƏLİYEV DÖVRÜ: 2003-2021-Cİ İLLƏRDƏ NAXÇIVANIN YÜKSƏLİŞİ

Ümummilli Lider tərəfindən əsası qoyulan bu işlərin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi Naxçıvan diyarını yeni inkişaf mərhələsinə çıxarmışdır. İndi Naxçıvan Muxtar Respublikası milli dövlət quruculuğu prosesinin fəal iştirakçısıdır, ölkəmizin iqtisadi qüdrətinin artırılmasına və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir. Bir sıra göstəricilərə görə muxtar respublika ölkənin başqa regionlarından öndə gedir. Prezident İlham Əliyev qədim diyara səfərlərinin birində vurğulamışdır: "Mən hər dəfə Naxçıvana gələndə, yeni obyektlərin açılışında iştirak edəndə çox sevinir, qürur hissi keçirirəm ki, Azərbaycanın qədim torpağı olan Naxçıvanda belə gözəl işlər görülür".

Bu gün Ulu Öndərimizin siyasi xəttinin layiqli davamçısı dövlət başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın müasir tarixinin şanlı səhifələri yazılır. Ulu Öndərin yoluna sədaqətin nəticəsi olaraq Azərbaycanın Naxçıvan Muxtar Respublikası da kompleks inkişaf mərhələsinə qədəm qoyub.

Azərbaycan Respublikası Prezidentinin 2003-2021-ci illərdə muxtar respublikaya səfərləri zamanı iştirak etdiyi tədbirlərin materialları və fotoşəkilləri, dövlət başçısının çıxış və müsahibələri əsasında hazırlanmış ensiklopedik nəşrdə Naxçıvanın ötən 18 ildə keçdiyi inkişaf yolu dolğun əks olunub. Dövlət başçısı kimi fəaliyyəti dövründə cənab İlham Əliyev 15 dəfə Naxçıvan Muxtar Respublikasına səfər edib, onun iştirakı ilə 100-ə yaxın təhsil, səhiyyə, idman və mədəniyyət müəssisələri, istehsal sahələri və hərbi təyinatlı obyektlər istifadəyə verilib.

2004-cü il mayın 12-də Prezident kimi muxtar respublikaya ilk səfəri zamanı Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə tikilmiş Naxçıvan Beynəlxalq Hava Limanının açılışında iştirak edən dövlət başçısı deyib: ”Naxçıvan hər bir azərbaycanlı üçün əziz, doğma torpaqdır. Azərbaycanın qədim torpağıdır. Naxçıvanda son illər ərzində aparılan abadlıq, quruculuq işləri bizim hamımızı çox sevindirir. Çətin şəraitdə, blokada şəraitində yaşayan naxçıvanlılar böyük işlər görüblər. Bu hava limanının tikilməsi, şəhərdə digər obyektlərin inşa olunması, yüksək səviyyədə tikilməsi onu göstərir ki, Naxçıvan çox sürətlə inkişaf edir”.

Bu illər ərzində muxtar respublika iqtisadiyyatının inkişafı diqqətdə saxlanılıb. Həyata keçirilən tədbirlər kənd təsərrüfatının və sənayenin inkişafına səbəb olub, sahibkarlığa dövlət dəstəyi hesabına iri sənaye kompleksləri və yeni istehsal sahələri yaranıb. Ölkə Prezidentinin xüsusi diqqət göstərdiyi sənaye sahələrinin yaradılması prosesində muxtar respublikanın da iştirak etməsi, ilk növbədə, əhalinin məşğulluğunun təmin olunmasına geniş imkanlar açıb.

Muxtar respublikanın 80, 85 və 90 illik yubileylərində dövlət başçısının iştirak etməsi Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvana göstərilən diqqətin əyani ifadəsidir. Kitabda yubileylərlə bağlı materiallara geniş yer verilib. Xüsusilə muxtar respublikanın 90 illik yubiley tədbirində Naxçıvanın muxtariyyət statusunun əhəmiyyətinə toxunan dövlət başçısının ”Naxçıvanın qədim dövlətçilik tarixi vardır... Naxçıvana 90 il bundan əvvəl Azərbaycanın tərkibində muxtariyyət statusu verilmişdir. Bu, gözəl hadisə idi, tarixi hadisə idi” fikirləri mühüm tarixi və siyasi əhəmiyyətə malikdir.

”Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun rahatlığı, sağlamlığı dayanır” deyən Prezident İlham Əliyevin həyata keçirdiyi islahatlar sosial siyasətin başlıca istiqamətlərindən biridir. Dövlət başçısının iştirakı ilə muxtar respublikada Diaqnostika Müalicə Mərkəzinin, Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Doğum Mərkəzinin, Duzdağ Fizioterapiya Mərkəzinin, rayon mərkəzi xəstəxanalarının, Naxçıvan Qarnizonu Mərkəzi Hospitalının və digər səhiyyə obyektlərinin istifadəyə verilməsi, tibb müəssisələrinin ən müasir avadanlıqlarla təmin olunması insan amilinə verilən qiymətin bariz nümunəsi kimi geniş oxucu kütləsinə təqdim edilir.Ötən 18 ildə muxtar respublikada elektroenergetika infrastrukturunun müasirləşdirilməsi, təbii qaz təchizatı, alternativ və bərpaolunan enerji mənbələri ilə bağlı mühüm layihələrin reallaşdırılması enerji təhlükəsizliyini təmin edib. Əgər 2003-cü ilin sonuna muxtar respublikada 1 elektrik stansiyası fəaliyyət göstərirdisə, 2020-ci ildə bu göstərici 9-a çatdırılıb. Bir zamanlar enerji idxal edən Naxçıvan artıq enerji ixrac edən bir diyara çevrilib. 2005-ci ildə Naxçıvan Muxtar Respublikasına təbii qazın verilməsi isə yaşayış məntəqələrini tam qazlaşdırıb.

## NAXÇIVANIN HƏRBİ POTENSİALI BÖYÜK DƏRƏCƏDƏ MÖHKƏMLƏNİB

Prezident İlham Əliyevin Naxçıvanın müdafiə təhlükəsizliyi ilə bağlı gördüyü işlərin, istifadəyə verdiyi hərbi obyektlər Ümummilli Lider Heydər Əliyevin ordu quruculuğu strategiyasını uğurla davam etdirilməsini təsdiqləyir. Ali Baş Komandan Prezident İlham Əliyevin rəhbərliyi ilə muxtar respublikadakı ordu, birləşmə və hissələr böyük təşkilatlanma və inkişaf yolu keçib. Torpaqlarımızın işğaldan azad olunmasında Əlahiddə Ümumqoşun Ordunun uğurlarına toxunan ölkə Prezidentinin dediyi kimi: ”İkinci Qarabağ müharibəsində Naxçıvan Ordusunun hərbçiləri - həm xüsusi təyinatlılar, həm digər birləşmələrin hərbçiləri fəal iştirak etmişlər və şəhidlər vermişlər, böyük fədakarlıq göstərmişlər”.






Naxçıvan Ordusu bu gün güclü Ordudur. Naxçıvan Ordusunun hərbi texnika ilə təminatı ən yüksək səviyyədə təşkil edilir. Bu da təbiidir, çünki Naxçıvan strateji əhəmiyyətə malik bir yerdə yerləşir. Dünyanın görkəmli dövlət xadimlərindən olan Heydər Əliyevin düşünülmüş və uzaqgörən siyasətində də, bu amil həmişə üstün yer tutub. Bəlkə də elə bu mənada müdrik insan, dahi rəhbər siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində bu diyarın möhkəmlənməsinə və inkişafına xüsusi qayğı və diqqət göstərib. Bu amil də torpaqlarımıza zaman-zaman göz dikən bədxah və işğalçı erməni millətçilərinin məkrli planlarının puç olmalarında önəmli rol oynayıb. Vətən müharibəsində Naxçıvan ordusunun qəhrəmanlığı bir daha təsdiq etdi ki, qədim diyarda yaradılan hərbi ilsey, müntəzəm keçirilən hərbi-döyüş təlimləri, alınan ən müasir silah və texnikalar yalnız bir hədəfə hesablanmışdı: Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsinə, Naxçıvanın möhkəm müdafiəsinə. Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyəti ilə şanlı ordumuzun işğal altındakı torpaqları azad etməsindən sonra imzalanan birgə bəyanatda Naxçıvan Muxtar Respublikasının Azərbaycanın əsas hissəsi ilə quru və dəmir yol əlaqəsinin bərpasına başlanılacaq. Münaqişəyə birbaşa aid olmasa da, müzəffər Ali Baş komandanın təkidi ilə qəbul edilən müvafiq bənd həm Naxçıvanın, həm də bütövlükdə ölkəmizin və regionun iqtisadi inkişafı baxımından çox əhəmiyyətlidir.

Naxçıvanın sənaye və kənd təsərrüfatı məhsullarının, sement, üzlük daşlar, kərpic kimi tikinti materiallarının xarici bazarlara rahat çıxışı üçün yaxşı imkanlar açılır. Naxçıvan həm də öz iqtisadi və insani imkanları, yüksək tikinti və iqtisadi təcrübəsi ilə Qarabağın yenidən qurulmasına da öz töhfəsini verə biləcək. O da vurğulanmalıdır ki, Naxçıvan Azərbaycanın tarixi abidələr və təbiət muzeyidir. Qədim diyarda 1200-dən artıq tarixi abidə var və onların əksəriyyəti bərpa olunub. Yeni reallıqlar Naxçıvanda beynəlxalq və daxili turuzmin yüksək sürətlə inkafı ilə də şərtlənəcək.

## MUSTAFA KAMAL ATATÜRK 100 İL ƏVVƏL NAXÇIVANI ”TÜRK QAPISI” ADLANDIRIB

Türkiyə Cümhuriyyətinin banisi Mustafa Kamal Atatürk 100 il əvvəl Naxçıvanı ”Türk qapısı” adlandıraraq, Türkiyənin bu bölgəyə verdiyi strateji önəmi ifadə edib. Bu qapı Türkiyənin Azərbaycana və Orta Asiyaya, Rusiyaya açılan qapısıdır. Noyabrın 10-da Ermənistanın kapitulyasiyasını rəsmiləşdirən sənəd isə iki qardaş ölkənin əlaqələri və bölgənin inkişafı baxımından Muxtar Respublikanın tarixində yeni bir səhifə açır. Artıq Muxtar Respublikanı Azərbaycanın əsas hissəsinə birləşdirəcək dəmir yolunun bərpası ilə bağlı ölkə Prezidenti tərəfindən müvafiq göstərişlər verilib. Yeni avtomobil yolunun çəkilməsi planlaşdırılıb. Türkiyədə isə Bakı-Tbilisi-Qars dəmir yolunu Naxçıvana bağlayacaq Qars-İğdır-Naxçıvan xətti ilə bağlı real addımlar atmaqdadır. Bütün bunlar isə indiyə qədər beynəlxalq nəqliyyat magistrallarından kənarda qalan Naxçıvanı onların mühüm halqasına çevirəcək, tranzit imkanlarını xeyli artıracaq.

Ekspertlərin fikrincə, Naxçıvanla nəqliyyat əlaqələrinin bərpa edilməsi Azərbaycan-Türkiyə starateji əməkdaşlığında yeni istiqamət yaradacaq. Bu kommunikasiya xüsusilə, iki ölkənin kiçik və orta biznesinin inkişafında mühüm rol oynayacaq. Naxçıvan Muxtar Respublikası ilə kommunikasiyaların bərpası Azərbaycanla Türkiyə arasında Gürcüstandan keçən yolla müqayisədə 343 kilometr daha qısa alternativ dəmir yolu və avtomobil yolu imkanı yaradacaq. Bu isə təkcə iki ölkə arasında yox, həm də Türkiyə ilə Mərkəzi Asiya dövlətləri, hətta Avropa ilə Asiya arasındakı yükdaşımaları sərfəli edəcək. Beləliklə, Mustafa Kamal Atatürkün böyük önəm verdiyi, ümummilli lider Heydər Əliyevin daima qayğı və diqqət göstərdiyi Naxçıvanın tarixində yeni inkişaf mərhələsi başlayır. Düz 100 ildir ki, qədim Azərbaycan torpağı Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvanın Azərbaycanın digər əraziləri ilə quru əlaqəsi kəsilmişdi. İkinci Qarabağ savaşının - Vətən Müharibəsinin Qələbə ilə başa çatması Naxçıvanla quru sərhədini artıq bərpa etməkdədir.

Azərbaycan Prezidentinin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən dövlət proqramlarının uğurlu icrası Naxçıvan Muxtar Respublikasında da bütün sahələrin inkişafına geniş imkanlar açıb. Belə ki, 2003-cü ildən ötən dövrdə muxtar respublikada ümumi daxili məhsul istehsalının həcmi 16 dəfə, sənaye məhsulunun həcmi 56 dəfə, kənd təsərrüfatı məhsullarının həcmi 7,5 dəfə, informasiya və rabitə xidmətlərinin həcmi 13 dəfə artıb. Muxtar respublikada 183 elm və təhsil ocağı, 304 mədəniyyət obyekti, 217 səhiyyə obyekti, 23 idman obyekti, 327 inzibati bina, 1089 istehsal və xidmət sahəsi tikilərək, 155 elm və təhsil ocağı, 178 mədəniyyət obyekti, 59 səhiyyə obyekti, 23 idman obyekti, 254 inzibati bina, 2218 kilometr yol yenidən qurularaq sakinlərin istifadəsinə verilib, 78 mindən artıq yeni iş yerləri açılıb. Bir sözlə Naxçıvanın inkişaf və tərəqqisində müstəsna xidmətləri olan Ulu Öndər Heydər Əliyevin bu siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Məhz bu muxtar respublikanın həqiqətən də nəqşi cahan olması onun 98 yaşında da görünməkdədir.

**RƏFİQƏ HÜSEYNOVA**



# "İkiqat "obrazovannı"lar"

## FELYETON

Allah sizə rəhmət eləsin, mollanəsrəddinçilər. Hələ ötən əsrin əvvəllərində-Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasından 10-15 il də əvvəl dilimizin saflığına ləkə gətirənlərlə bu gün də dəyərini saxlayan yazılarınızla mübarizə aparırdınız. Nə bilərdiniz ki, xalqımızın alın yazısı olan 70 il dilimizə elə ağır zərbə vuracaq ki, bir əsir sonra o zərbədən dağılanları bir yerə toplamaq çox çətin olacaq. 1991-ci ildə müstəqilliyimizi əldə edəndən sonra dilimizin inkişafı ilə bağlı bir neçə sənəd qəbul olundu, ana dili ilə bağlı itirdiklərimiz özümüzə qaytarıldı. Lakin hələ də aramızda həm bilərəkdən, həm də bilməyərəkdən rus və son vaxtlar-



*Mətanət MƏMMƏDOVA*
*Əməkdar jurnalist*

sa daha çox türk sözlərindən istifadə etməklə zəngin dilimizin gözəlliyinə xələl gətirənlər var. Bu yaxınlarda dinləyicisinə çevrildiyim bir söhbət zamanı sizlərin "Bizim "obrazovannı"lar" felyetonunuzu xatırladım və illər əvvəl yazılmış o felyetondan aldığım ruh müasir dövrümüzün bəzi eybəcərliklərini əks etdirən "İkiqat "obrazovannı"lar" adlı felyetonumun yazılmasına səbəb oldu.

Bizim "obrazovannı"lar

Mənim bir rəfiqim var, özü də müsəlmandır, amma məni görəndə rus dilindən savayı özgə dildə danışmaz. Məsələn, söhbətimiz bu cür olur: mən onu görəndə deyirəm:

-Hardan gəlirsən?

O mənə belə cavab verir:

-Ya xadil na poçtu.

Deyirəm:

-Dünən niyə bizə gəlmədin?

Cavab verir:

-K nam prişli qosti.

Deyirəm:

-Yaxşı, qonaqlar gedəndən sonra gələydin!

Cavab verir:

-Net, uje bılo pozdno.

Deyirəm:

-Söz verirsən ki, sabah gələsən, bir az söhbət edək?

Cavab verir:

-Pastarayus, no slovo ne dayu.

Deyirəm:

-Xudahafiz!

Cavab verir:

-Do svidaniya.

Amma dostumun bir şeydən xəbəri yoxdur: xəbəri yoxdur ki, mən də rusca bir az danışa bilirəm!

Axırı bir gün dostumdan soruşdum:

-Mən ölüm, mənə sözün doğrusunu de görüm, sən ki, otuz səkkiz il müsəlman içində tərbiyə tapıbsan, xəta olmadı ki, bir az rusca oxudun? Nə səbəbə sən mən ilə heç müsəlmanca danışmaq istəmirsən?

Yoldaşım mənə rus dilində belə cavab verir:

-Sluşay, kak-to stıdno koqda obrazovannıy çelovek po-tatarski qovorit! (yəni obrazovannının müsəlmanca danışmağı eybdir!).

-Çox sağ ol, rəfiqim, mən bunu bilmirdim!

Deyirlər ki, həmin mənim rəfiqim rus şkolunda oxuyan vaxt bir gün anasına deyib:

-Ana! Pajaluysta, mənə bir şey svarit elə! (yəni bişir!).

Anası cavab verib:

-Bala, nə dedin?

Rəfiqim cavab verib:

-Ox, ox! Siz heç bir zad qanmırsınız! Mən deyirəm: bir zad bişir.

-Bala, nə bişirim?

-Çort eqo znaet! Yadımdan çıxıb Yumru olur, əti döyüb salırlar çölməyə, ya qazana Bir cür adı var

-Bala, küftə deyirsən?

-Hə hə qofta, qofta!

"Molla Nəsrəddin", 14 aprel, 1906, №2

İmzasız

İkiqat "obrazovannı"lar

Yaxınlarımdan birinin evində qonaq idim. Divanda uzanan oğlan anasına:

-Ay ana, o pəncərəni aç, çox istidir.

Ana pəncərəni açdı. Bir xeyli vaxtdan sonra oğlan yenidən:

-Ay ana, sən niyə pəncərəni açmısan?

-Ay oğul, bəs sən dedin də.

-Mən o xırdanı dedim ki, bir az hava gəlsin.

Ana:- Ay, düz deyirsən, skvazniyak eləyir, indicə kamarı da dolduracaq içəriyə, tamam, "qoy pəncərəni örtüm, fortuçkanı açım",- deyə pəncərəyə yaxınlaşdı.

Oğlan yenidən səsləndi:

-Ana, ayaqdasan, sən Allah, şarjım bitir, al bu telefonu, adapter otağımdadır, tax toka, bacıya mesaj yazacağam.

Ana telefonu alıb, otağa keçdi və oradan deyindiyini eşitdim:

-Yüz dəfə dedim ki, ay kişi, bir montyor gətir, bu evin tokuna baxdır, hara taxım bu telefonu axı zaryadka yığsın, razetkaların heç biri işləmir.

Ana ilə balanın bu yarı rus, yarı türk dioloqu məni yamanca təbimdən çıxardı. Birinci hirsimi oğlana tökdüm, dedim bizim vaxtımızda valideynin yanında nəinki uzanmaq, hətta onu işə buyurmaq böyük qəbahət sayılardı.

Sonra da üzümü hər ikisinə tutub, "siz bilirsiniz ki, səhərdən bəri danışdığınız on sözün səkkizi rus, türk sözləridir",- dedim. Hirslə anadan soruşdum:

-Fortuçka nə deməkdir?

-Fortuçka elə fortuçkadır da, balaca pəncərə, sənin də işin qurtarıb ey, bizə sorğu-sual edirsən.

Oğlana üz tutdum:

-Şarj nədir, adapter nədir?

Cavab verdi ki, adapter telefona şarj yığır.

Bu sorğu-sualımı görən ana mənə nə desə yaxşıdır?

-Sənin də sosyeteliyin tutmasın, gəl, çay içək.

Onlara son sözüm belə oldu: Sizi gördüm, bir əsr əvvəl "Molla Nəsrəddin" jurnalında dərc olunan "Bizim "obrazovannı"lar" felyetonunu xatırladım. Hələ felyetonu da onlara söylədim. Axırda da dedim ki, siz lap elə ikiqat obrazovannısınız ki...

# "Rusiya da danışıqlara Minsk Qrupunu yaxın buraxmaq istəmir"

**"Avropa Parlamentinin 2021-ci il üçün xarici siyasət və təhlükəsizlik üzrə bu günlərdə açıqlanan hesabatı Ermənistanda böyük sevinc və ümidlə qarşılanıb. "ATƏT-in Minsk Qrupunun Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq səviyyədə tanınan yeganə format" olduğu qeyd edilən hesabatda "regionun sabitliyini və rifahını təmin etmək, eləcə də regional güclərin təsir və müdaxiləsinə qarşı çıxmaq üçün Avropa İttifaqı və üzv ölkələrinin Cənubi Qafqazda daha çox iştirakının zəruriliyi" vurğulanır". Bunu "Səs" qəzetinə açıqlamasında ANAP-ın sədri Abutalıb Səmədov bildirib.**



Onun sözlərinə görə, hesabatın 42-ci maddəsində, ATƏT-in Minsk Qrupunun bu "münaqişənin ərazi bütövlüyü, güc tətbiq edilməməsi, öz müqəddəratını təyinetmə və bərabərlik, münaqişələrin sülh yolu ilə həlli prinsipləri əsasında həlli üçün yeganə beynəlxalq səviyyədə tanınmış format olaraq qaldığı" xüsusi qeyd edilir: "Eyni zamanda MQ-nin mümkün qədər tez vasitəçilik roluna qayıtmasına çağırış edilir, növbəti dəfə "hərbi əsirlərin qaytarılmasının" vacibliyi vurğulanır. Avropa Parlamentinin ATƏT-in Minsk Qrupunu Qarabağ münaqişəsinin həlli üçün beynəlxalq səviyyədə tanınan yeganə format sayması bizi təəccübləndirməlidirmi? Zənnimcə, yox. Çox təəssüf ki, reallıq bundan ibarətdir. Qarabağ münaqişəsinin bitməsi və özünü "Dağlıq Qarabağ" adlandıran qondarma quruma heç bir statusun verilməyəcəyi barədə Azərbaycanın mövqeyini dünyanın əksər dövlətləri və beynəlxalq qurumlar dəstəkləmir. Hətta bizə dost olan, yaxud, belə hesab etdiyimiz dövlətlər də heç vaxt qəbul edə bilməyəcəyimiz mövqe sərgiləyirlər və Minsk Qrupunun "Qarabağ münaqişəsinin" həllində aktiv mövqe tutmasını tələb edirlər. Baxmayaraq ki, Azərbaycan Prezidenti ilin əvvəlində yerli televiziyalara müsahibəsində qəti şəkildə bəyan etmişdi ki, Minsk Qrupu "Dağlıq Qarabağ münaqişəsi ilə məşğul olmamalıdır, çünki bu münaqişə həll olunub. Biz onların yerinə bu məsələni həll etdik. Onlar üçün nə qədər çətin olsa da, bu yeni reallığı qəbul etməlidirlər. Bilməlidirlər ki, onlar bundan sonra Qarabağ məsələsi ilə məşğul olmayacaqlar. Çünki buna biz imkan verməyəcəyik". Hərbi əməliyyatlar bitəndən dərhal sonra dövlət başçımız cəsarətlə bu mövqeni ortaya qoysa da, dünya güclərinin müqaviməti davam edir".

A.Səmədov onu da bildirdi ki, bizim mövqeyimizi gücləndirən məqamlar barədə Azərbaycan Prezidenti həmin müsahibəsində danışaraq demişdi ki, "indi həmsədrlər arasında da əvvəlki dövrlərdəki kimi birlik yoxdur: "Həm bu ölkələr arasındakı münasibətlər son vaxtlar xüsusilə çox gərginləşib, eyni zamanda, keçmiş münaqişə və indiki vəziyyətlə bağlı onların fərqli fikirləri var. Məncə, onlar öz aralarında bir razılığa gələ bilmirlər". Azərbaycanın əsas ümidi məhz onunla bağlıdır ki, Rusiya digər iki həmsədrdən tam fərqli mövqe tutur və danışıqlara Minsk Qrupunu yaxın buraxmaq istəmir. Üstəlik, prezidentimiz ötən ilin iyul ayında bəyan etdi ki, bu məsələdə Azərbaycanla Rusiya arasında fikir ayrılığı yoxdur. Təbii ki, məhz bu amil son nəticənin istədiyimiz kimi olacağına ümidlərimizi artırır. Ancaq o da aydındır ki, bizi qarşıda uzunsürən, ağır mübarizə gözləyir. Arxayınlaşa bilmərik və hətta arxayınlaşmaq istəsək də, erməni havadarları bizə bu imkanı verməyəcəklər. Güman edirəm ki, Azərbaycan xarici işlər nazirliyi həm Avropa parlamentinin bu hesabatına, həm də ilin sonunda ABŞ prezidentinin imzaladığı "Milli müdafiə haqqında"qanunda yer alan dəhşətli iddialara öz münasibətini mütləq bildirməli və bu cür təxribatlardan çəkinməyi tələb etməlidir".

***Gülyana***

REPORTAJ

# Paytaxt sakinlərinin teatra marağı NECƏDİR?







**Teatr-incəsənətin bir növü olub, hiss, fikir və emosiyaları tamaşaçı və ya tamaşaçılar qrupuna bir və ya bir qrup aktyor tərəfindən ötürülməsini əks etdirir. Teatr tamaşası nümayiş olunan bina isə teatr adlanır.**

Teatr rəqs formasında hələ daş dövründə mövcud olsa da, onun yeni əsasları antik Yunanıstanda işlənir və teatr sənətinin inkişafına təkan verir.

”Teatron”nun yaradılması ilə bir tərəfdən yunan demokratiyasının müzakirəsinə imkan verilmiş, digər tərəfdən di-



ni bayramların keçirilməsi mümkün olmuşdur. Çünki, o dövrdə din və siyasət bir vəhdət kimi çıxış edirdi. Aristotel öz işlərində teatr elmini də əsaslandırmışdır. O hadisə, məkan və vaxtı dramada birləşdirməyi tələb etmişdir.

Romantika dövründə teatr səhnələrində əsasən lirik



pyeslər tamaşaya qoyulurdu və vacib insan hisslərinin ifadə olunmasına yer verilirdi.

XIX əsrin 70-ci illərində Azərbaycanda milli teatrın yaranması mədəniyyətimizin tarixində çox böyük hadisə oldu. 1873-cü il martın 10-da Bakı realnı məktəbinin teatr həvəskarları truppası tərəfindən M. F. Axundzadənin ”Sərgüzəşti-vəziri-xani Lənkəran” komediyası tamaşaya qoyuldu.

Deməli teatr bir xalqın mədəniyyətinin inkişafında mühim rola sahibdir. Bəs Azərbaycanda insanların teatra marağı hansı səviyyədədir? SİA olaraq bu məsələni araşdırmaq üçün Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına üz tutduq. ”Ölülər” əsərinin səhnələşdirilməsi isə deyəsən vətəndaşlarımızın olduqca diqqətini çəkmişdir. Əslində teatra üz tutarkən zalın dolu olacağını düşünmürdük. Lakin pandemiya qaydaları nəzərə alınmaqla zal dolu idi. Eyni zamanda zalın yarısının gənc cütlüklərlə dolu olması da bizdə xoş təəssürat yaratdı.

Bu, gənclərimizin kinoteatrlardan çıxıb artıq teatra, əsl incəsənətə meyllənmələrinin göstəricisi idi. Eyni zamanda tamaşadan sonra orada tamaşanı izləyənlərin fikirlərini öyrənmək üçün yaxınlaşdıqda daha gözəl bir təşəbbüslə də rastlaşdıq. Paytaxtımızda yerləşən məktəblərdən biri daimi olaraq məktəbdə keçirilən yarışların qaliblərinə teatr üçün bilet hədiyyə edirmişlər.

**Şəhər sakini Elnarə Əsədova:**

”Bizim məktəbdə gənclər günü ilə əlaqədar məktəb rəhbərliyinin təşəbbüsü ilə



şagirdlər arasında yarış keçirildi. Qaliblərə isə hədiyyə olaraq tamaşaya biletlər təqdim olundu. Hazırda həm məktəb rəhbərliyi, həm müəllim kollektivimizin bir hissəsi, həm də şagirdlərimizlə birgə tamaşanı izləməyə gəlmişik”.

**Şəhər sakini Firəngiz Xəlilova:**

”Teatra hər zaman gəlirəm. Lakin daha çox İlyas Əfəndiyevin əsərlərini izləməyə



üstünlük verirəm. Burada vaxt keçirmək mənə böyük bir zövq verir. Günün bütün yorğunluğunu bu zalda qoyub çıxıram”.

**Şəhər sakini Məhbubə Kazımova:**

”Daha çox Azərbaycan Dövlət Akademik Milli Dram Teatrına üz tuturam. Səbəbi isə burada səhnələşdirilən əsərləri çox bə-



yənirəm. Mərahim Fərzəlibəylinin rejissorluğunu etdiyi əsərləri izləmək isə daha zövqlü olur. Eyni zamanda yeni quruluşda olan əsərləri maraqla izləyirəm”.

**Şəhər sakini Şəmsiyyə Quliyeva:**

”Şəhər mərkəzindən uzaqda yaşadığım üçün teatra gəlmək bəzən çətin



olur. Lakin hər bir halda fürsət tapan kimi bura üz tuturam. Çünki mənim üçün dincəlməyin ən yaxşı yolu budur. Burda bizim gənclik illərimizin abuhavası var. Fikrimcə buranın aktyor ansamblı, rejissor heyəti çox güclüdür. Buna görə də daha çox bu teatra üz tuturam. Azərbaycan teatrının qaymaqları burdadır”.

**Şəhər sakini Seymur Əliyev:**

”Teatrlara əvvəl daha



tez-tez gəlirdim. Daha sonra bir müddət fasilə verdim. İndi isə yenidən teatr mənim sevimli məkanıma çevrilib. Bu tamaşa isə pandemiyadan sonra gəldiyim ilk tamaşadır. Hazırda məktəb kollektivimizlə birgə gəlmişəm. Lakin tamaşanı izləyənlər içərisində ailəm də var”.

**Şəhər sakini Nəzrin Mirzəyeva:**

”Teatra ilk dəfədir gəlirəm. Məktəb kollektivi ilə birgə gəlmişəm. Lakin tamaşanı çox bəyəndim. Buradakı abu-hava mənə



çox zövq verdi. Əminəm ki, bundan sonra daimi olaraq teatrlara üz tutacam”.

**Şəhər sakini Vüsalə Abdullayeva:**

”Bizim məktəbdə tez-tez intellektual yarışlar keçirilir. Qaliblərə isə tamaşaları izləmək üçün biletlər verilir. Məncə, bu çox gözəl bir haldır. Çünki həm şagirdlərimiz maariflənir, həm də teatra artıq məktəb yaşlarından bəri sevgi bəsləməyə başlayırlar. Bu isə onların bir vətəndaş kimi düzgün formalaşmasına təkan verən böyük bir amildir”.

***Səbinə Hüseynli***




## Baharın ilk müjdəçisi - Su çərşənbəsi

Novruz Azərbaycan xalqının zəngin maddi və mənəvi dəyərlərinin mühüm bir hissəsini özündə ehtiva edən böyük mədəniyyət hadisəsidir. Bu bayrama tarixi inkişaf boyunca baxdığımız zaman onun qədim mədəni köklərə və mənəvi qaynaqlara bağlı olduğunu görürük. Keçmişdə olduğu kimi, bu gün də Azərbaycanda, digər türk dövlətlərində və bir çox qonşu ölkələrdə Novruz Bahar bayramı kimi qeyd olunmaqdadır. Bayrama qədər xalqımız 4 çərşənbəni qeyd edir. Bəzi qədim inanclara görə kainat 4 ünsürdən - su, od, torpaq və küləkdən yaranıb. Aşıqlar da vücudnamələrində "Ab, ataş, xak, badan yarandım" deyiblər, yəni insan su, od, torpaq və yelə bağlıdır. Birinci su çərşənbəsi adlanır. Yəni bahara doğru çayların azacıq buz bağlayan yerləri əriyib çaylara tökülür. Torpaq yavaş-yavaş islanmağa başlayır. Qızlar bulaqlardan sərin, şirin su gətirərdilər, evin ətrafına çiləyərdilər, üzlərini yuyardılar.

İkincisi od çərşənbəsi adlanır. Ona görə ki, bahara doğru günəş yavaş-yavaş torpağı qızdırır, isindirir. Od çərşənbəsində tonqallar qalanır. Hər ailə üzvünün adına bir şam yandırılır, xonçalar düzəldilir. Üçüncüsü yel çərşənbəsidir. Yəni yel artıq azacıq oyanmış torpağı, təzəcə çıxmış yaza həsrət gülləri tərpədir, tumurcuqlanan ağacları yelləndir.Dördüncüsü torpaq çərşənbəsidir. Torpağı ana təbiət su ilə islatdı, günəşlə isitdi, onu yaratmağa hazırladı. Ona görə də ilk yaz əkinini xışla-kotanla məhz torpaq çərşənbəsi günündə başlayardılar.

Novruz bayramında xüsusi şirniyyatlar bişirilir. Çərşənbə və bayram xonçaları bu şirniyyatlarla bəzədilir. Hər bir bişirilən şirniyyatlar bir səma cisimlərinə bənzədilir. Qoğal günəşi, şəkərbura ayı, paxlava ulduzları tərənnüm edir. Kosa və Keçəl Novruz atributlarıdır. Keçəl qışı, Kosa isə yazı tərənnüm edir. Bu gün artıq Novruz bayramının ilk çərşənbəsi Su çərşənbəsi qeyd olunur. Bu çərşənbəni "Yalançı", "Əzəl çərşənbə", "Sular Novruzu" da adlandırırlar. Su çərşənbəsi boz ayın dörd müqəddəs çərşənbəsinin ilkidir. Deyirlər ki, Tanrı ilk olaraq suyu yaradıb. Buna görə su ilk çərşənbə kimi qeyd edilir.

Su çərşənbəsində su və su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, su ilə bağlı müxtəlif şənliklər keçirirlər. Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Hələ gün doğmamışdan hamı su üstünə gedir, əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atlanır, yaralıların yarasına su çiləyirlər. Xalqın inamına görə Su çərşənbəsi günü "təzə su"dan keçənlər, azarını, bezarını ona verənlər il boyu xəstəlikdən uzaq olarlar. Həmin gün su üstündə müxtəlif mərasimlər keçirilir, qədim türklərdə su tanrıları sayılan Aban və Yadanın şərəfinə nəğmələr oxunur.

Su ilə bağlı folklorumuzda maraqlı olan inanclarla rastlaşırıq. Su çərşənbəsində suyun müqəddəs mahiyyəti bir daha ifadə olunur. Bütün mifik mətnlərdə su həyat verən, dirildən, xoşbəxtlik gətirən müqəddəs bir inam obyekti kimi çıxış edir. Süfrəyə su dağılması aydınlıqdır, Su içən adamı qəfil vurmazlar, Su içən adamı ilan çalmaz, Lal axan sudan keçərkən suyum irəlilə deyərlər, Su olan yerdə dirilik olar, Su murdarlıq götürməz və s. Əlbəttə ki, bu inaclar suyun təmizliyinə, saflığına olan inamdan irəli gəlir.

Su çərşənbəniz mübarək!

**Zümrüd BAYRAMOVA**

# "AQTA bu kimi halların öhdəsindən tam olaraq gələ bilmir"

Təhlükəsiz qida tədqiqatçısı Asim Vəliyev SİA-ya müsahibə verib. Həmin müsahibəni sizə təqdim edirik.




***- Sağlam qidalanmaq üçün süni yolla hazırlanmış qidalardan və yarımfabrikatlardan tamamilə imtina etməliyikmi?***

- Bildiyimiz kimi, bu gün müasir dünyanın tələblərinə görə qidaların çoxlu sayda çeşidləri artır. Qida çeşidləri artdıqca, qidaların bir ölkədən başqa bir ölkəyə daşınması üçün qidanın rəf ömrünü uzatmağa çalışırlar. Qidanın rəf ömrünün uzatmaq üçün ona müxtəlif kimyəvi qatqı maddələri qatırlar. Bu maddələr də daha sonrakı mərhələdə insan sağlamlığı üçün çox böyük təhlükəyə səbəb olur. Təbii ki, bu qatqı maddələri bir qidada yox, digər qidalarda olduğu üçün insan artıq bir neçə qida qəbul etdikdə bu da bir sonrakı mərhələdə müxtəlif xəstəliklərlə ortaya çıxır. Biz hər zaman təbliğ edirik ki, insanlar marketlərdən alış-veriş edərkən mütləq şəkildə uzun rəf ömrü olan qidaları almasınlar. İnsanlar daha çox mövsümi meyvə-tərəvəzlərə üstünlük verməlidir. Çünki bu sağlamlıq cəhətdən çox vacibdir.

***- Arıqlamaq və sonra yenidən kökəlmək üçün nə etmək lazımdır?***

- Azərbaycan mentaliteti olaraq bu gün biz çay içməyə daha çox meylliyik. Nə qədər çayı sevsək də, gün ərzində kifayət qədər, insan çəkisinə uyğun su qəbuluna üstünlük verməyimiz daha yaxşıdır. Keçmiş dövrdə gündə iki dəfə yemək yemək tövsiyə olunurdu. Amma indiki dövrdə gün ərzində 3 dəfə, hətta 4 dəfə qida qəbul etməliyik.

***- Bildiyimiz kimi, "üç zəhər" kimi qeyd etdiyimiz un, şəkər və duz kimi qidalardan imtina etdikdə həmin qidalara alternativ olaraq hansı qidalarla əvəz edə bilərik?***

- Təbii ki, bu gün biz "üç zəhər" kimi adlandırdığımız ağ qidalardan davamlı olaraq istifadə edirik. Bu qidaların əvəzləyici qidalar kimi xurmanı tövsiyə edə bilərik. Bildiyimiz kimi xurma tərkibinə görə, çox zəngin qidadır. Səhər yeməyində isə daha çox təbii baldan istifadə edə bilərlər. Emal olunmuş duzdan ümumiyyətlə imtina etmək lazımdır. Bu duzların əvəzinə Naxçıvan duzlarından istifadə etmək daha yaxşıdır. Bundan əlavə duz istehlak edərkən duzu miqdarı da çox önəmlidir. Duzdan həddindən çox istifadə etmək gələcəkdə müəyyən xəstəliklərə səbəb ola bilər.

***- Bəs, hansı qidalardan və içkilərdən uzaq durmaq lazımdır?***

- Xüsusilə, "fast-food" adlandırdığımız qidalardan uzaq durmalıyıq. Həmçinin "kartof fri" adlandırdığımız, daha çox da uşaqların yediyi qida var ki, bu qidanın qızardılmasında çox ciddi təhlükələr yaranır. Çünki bir yağı bəlkə də 200-300 dəfə dəyişmədən qızardırlar. Bu kimi qidalar gələcəkdə insan orqanizmində xəstəliklərin gətirib çıxardır.

***- Məktəblilərin qida rejimi necə olmalıdır?***

- Təəssüflər olsun ki, məktəblərdə mənşəyi bilinməyən ətlərdən hazırlanan dönərlər satırlır. Bu çox təhlükəlidir. Bu kimi qidalar daha sonradan insan orqanizmi üçün çox zərərlidir. Eyni zamanda məktəblərdə satılan hazır şirniyyatlar, peçenyelər, xüsusilə də qazlı içkilər uşaqlar üçün çox təhlükəlidir. 2018-ci ildə Azərbaycan Qida Təhlükəsizliyini Agentliyi fəaliyyətə başladı. Lakin çox təəssüflər olsun ki, bu gün nəzər yetirdikdə AQTA bu kimi halların öhdəsindən tam olaraq gələ bilmir.

**Arzu Qurbanzadə**

# Pensiyalar necə müəyyən olunur?

"Mövcud qanunvericiliyə əsasən əmək pensiyalarının məbləği pensiya kapitallarının həcmi ilə müəyyənləşir". Bunu Modern.az-a açıqlamasında Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vüqar Bayramov bəzi vətəndaşların pensiya məbləğinin aşağı olması ilə bağlı fikirlərinə münasibət bildirərkən deyib. V.Bayramov qeyd edib ki, daha çox pensiya kapitalına sahib olan vətəndaşımız daha çox pensiya almaq şansına malikdir:

"Ona görə də, insanlarımızın əmək müqaviləsi ilə işləməsi çox vacibdir. Çünki bizim apardığımız monitorinqlər də göstərir ki, bir çox hallarda vətəndaşlarımız əmək müqaviləsi olmadan yalnız ikitərəfli şifahi anlaşma ilə işləməyə üstünlük verirlər. Bu zaman da, təbii ki, sosial ödənişlər edilmir.

Nəticə etibarı ilə bu, bütövlükdə onların pensiyalarına təsir edir". Deputat deyib ki, əmək müqaviləsi olmadan çalışdıqda, şəxsin stajı da qeydə alınmır:

"Stajın qeydə alınması üçün vətəndaşın əmək müqaviləsi ilə işləməsi çox vacibdir. Ona görə də, daha çox pensiya almaq üçün pensiya kapitalının həcmi böyük olmalıdır. Həm minimal pensiya, həm də digər əmək pensiyaları üçün dövlət büdcəsinə vəsaitlərin ayrılması və bu vəsaitlərin həcminin də artırılması hər zaman prioritetdir. Növbəti illərdə də bu istiqamətdə daha çox vəsaitlərin artırılması gözlənilir. Dövlət təminatının genişləndirilməsi ilə yanaşı vətəndaşlarımız da əmək müqaviləsi ilə işləməlidir ki, daha artıq pensiya imkanları olsun".

İqtisadçı ekspert Pərviz Heydərov isə bu barədə bildirib ki, qanunvericiliyə əsasən, pensiya yaşına çatmış şəxs pensiya hüququna malik olmaq üçün ya əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya kapitalına və yaxud da azı 25 il sığorta stajına sahib olmalıdır: "Cari ilin yanvarın 1-dən minimum pensiya məbləğinin 240 manata çatdırılması ilə əlaqədar ölkədə 2022-ci il üzrə pensiya kapitalının minimum məbləği də artıb. Hazırda minimum pensiya kapitalı yanvarın 1-dən 34 560 manat təşkil edir. Bundan əvvəl 28 800 manat idi. Əmək pensiyasının minimum məbləğindən az olmayan pensiya təminatına imkan verən pensiya kapitalı 240 manatın (ölkə üzrə minimum pensiya məbləğini) 144-ə vurulması ilə müəyyən edilir. Əgər həmin qədər pensiya kapitalı yoxdursa, o zaman azı 25 il sığorta stajı əsas götürülür.



Onun sözlərinə görə, məcburi dövlət sosial sığorta haqqının əmək ödənişinə (gəlirə) nisbətdə faizlə müəyyənləşdiyini, sığortaedənin və sığortaolunanın vəsaiti hesabına ödənildiyini nəzərə alsaq, ölkədə çox nadir işçinin ardıcıl olaraq 12 il ərzində hər ay 240 manat vəsait köçürmək iqtidarında olduğunu izah etməyə ehtiyac yoxdur:

"Bunun üçün isə ya maaşlar kifayət qədər yüksək məbləğdə təşkil etməli və yaxud da məcburi dövlət sosial sığorta ayırmaları dərəcələri artırılmalıdır. Maaşları necə gəldi artırmaq isə mümkün deyil. Çünki yüksək aylıq qazanc yüksək gəlirli iqtisadiyyat tələb edir. İqtisadiyyat inkişaf etdikcə və artım daha çox dayanıqlığa söykəndikcə, pensiya hüququnun təsbiti və vaxtında, o cümlədən layiqli pensiya məbləğinin əldə olunması hər bir vətəndaş üçün əlçatan olmalıdır. Buna isə vaxt lazımdır".

# Oksford Akademiyasının professoru olan azərbaycanlı xanım



## Xuraman Muradova: "Sizə səmimi deyim ki, 44 günlük müharibədə mən elə bil ömrümün 44 ilini yaşadım. Ona görə də bizim hər birimiz öz işimizlə Ali Baş Komandanımızın və Vətənimizin əsgəriyik"




Eşidəndə ki, "Milan" Hospitalın yaradıcısı, tanınmış iş adamı, Xurşud Banu Natəvan adına mükafatın laureatı, maraqlı şeirlərin, bayatıların, "Nəbi və Həcər dastanı" poemasının və nəsr əsərlərinin müəllifi Xuraman xanım İsmayıl qızı Muradova dünyanın ən aparıcı akademiyalarından biri olan Oksford Akademiyasının professoru seçilib, çox sevindim. Axı, Xuraman xanım başda olmaqla "Milan" Hospitalı günü-gündən inkişaf edərək, artıq dünya səviyyəsində öz sözünün deyir, haqlı olaraq bu fəxri ada layiqdir. Səkkiz aydan çox bir müddətdə tanıdığım və gördüyü müqəddəs işlə insanların qəlbində özünə əzəmətli heykəl ucaltmış Xuraman xanım və onun rəhbərlik etdiyi "Milan" Hospitalın kollektivi haqqında çoxlu məqalə, portret yazıları yazmışam. Hamısı da maraqla qarşılanıb. Xuraman xanım və "Milan" Hospitalın peşəkar həkimləri haqqında xəstələrin necə mehribanlıqla, ürək dolusu danışdıqlarının və az bir vaxtda sağaldıqlarının şəxsən şahidi olmuşam. Bir daha təkrar etmək istəyirəm ki, həqiqətən də Xuraman Muradovaya təqdim olunan bu dünya səviyyəli fəxri ad şəxsən halalıdır. On beş ildən çox bir müddətdə xalqımızın sağlamlığı keşiyində layiqincə dayandığının, Vətən müharibəsində yaralanan qazilərimizə, canlarından keçən şəhidlərin ailərərinə, valideynlərinə təmənnasız xidmətinin layiqili mükafatıdır. Həmçinin Xuraman xanım "Milan" Hospitalı artıq dünya səviyyəsində yetərincə tanıdıb.

Bununla əlaqədar "Milan" Hospitala getdim. Xuraman xanımı və bütün kollektivi təbrik eedim. Gördüm ki, böyük bayram əhval-ruhiyyəsindədirlər. Fürsətdən istifadə edib Xuraman xanıma belə bir sual verdim:

***- Siz həm də Vətən müharibəmizin gedişatını və qələbəsini dünya miqyasına imkanınız daxilində təqdim etmisiniz?***

- Vətən müharibəsi dövründə xalqımız bir yumruq kimi Ali Baş Komandanımızın ətrafında sıx birləşdi. Doğrudan da hamı qələbə üçün öz bacarığını əsirgəmədi. Belə rəvayət var: Bir yer yanır. Görürlər ki, bir sərçə ağzında su gətirib, həmin yanan yerə tökür. Soruşurlar ki, "ay sərçə, sənin bir damla suyunla məgər yanan yer sönəcək?" Sərçə cavab verir ki, "Allah ən azından mövqeyimi görsün ki, mən də bu yanğının sönməyinin tərəfdarıyam". Beləliklə, biz müasir silahlarımızla, güclü ordumuzla və ən əsası isə ağıllı, uzaqgörən siyasəti, böyük bacarığı olan Ali Baş Komandanımızla 44 günün tamamında erməniləri təslim aktına qol çəkməyə məcbur etdik. Bu qələbəmizə Vinçenzo Kastiqliola da çox sevindi və bizim şücaətimizi daha çox təbliğ etməyə başladı.

***- Bilirik ki, Vətən müharibəsi dövründə sizin həkimlər də böyük fədakarlıq göstəriblər.***

- Bəli, elədir. Bizim neyrocərrahımız, travmatoloqumuz, anestezioloqumuz, LOR həkimimiz və bütövlükdə "Milan" Hospitalın işçiləri əllərindən gələn köməklikləri edirdilər. Həm ön, həm də arxa cəbhədə. Həmin vaxtı bizə orduda "döyüşən Hospital" deyirdilər. Biz bütün yaralı əsgərlərə bütün yardımları edirdik. Vinçenzo Kastiqliola da bütün bunları izləyir və həkimlərimizin fədakarlığını yüksək qiymətləndirirdi. Mən ona qan içində olan, ağlayan həmvətənlərimizin şəkillərini göndərirdim ki, erməni vəhşiliklərini bir daha görsün. O, mənim vətənpərvərliyimə heyran olduğunu deyirdi. Bu insan müharibənin həyəcanlarını mənimlə birgə yaşayırdı. İstəyirdim ki, o, bütün baş verənləri dünyaya çatdırsın. Bilirsiniz ki, erməni lobbisi dünyada çox güclüdür. Onlar çayır kötüyü kimi dünyaya yayılıblar. Özlərinin haqlı olduqlarını bəyan edirlər. Onlardan hər namərdlik gözləmək olar. Bilirsiniz ki, ilan bal da yalasa, bal da yesə, yenə də ağzından zəhər tökəcək. Erməni toplumu da ilan kimidir. Onlara biz bal da versək, onlar bizə qarşı ağızlarından yalnız zəhər tökəcəklər. Onlar doğulan uşaqlarını ilk yaşlarından türkün onlara düşmən olduğu tərbiyəsi ilə böyüdürlər. Ona görə də biz hər sahədə güclü olmalıyıq. Bir-birimizə paxıllıq eləməməliyik. Hər zaman inkişafda olmalıyıq. Əgər iqtisadiyyatımız güclü olmasaydı, biz müasir silahları, PUA-ları necə ala bilərdik? Bax, mən də istəyirdim ki, dünya şöhrətli bu alim bizim haqq səsimizi hər yerə yaysın, müqəddəs iş uğrunda vuruşduğumuza hamını inandırsın. Burada mən bir məsələni də vurğulayım ki, biz 2019-cu ilin sentyabr ayında Praqada olan vaxtı tədbir keçirilən binada 56 ölkənin bayrağını asmışdılar, amma bizim bayrağımız yox idi. Mən tələb elədim ki, bizim bayrağımızı da oradan assınlar. Əgər asmasalar biz bu tədbirdə iştirak etməyəcəyik. Onlar Azərbaycanın Çexiyadakı Səfirliyindən bizim üçrəngli bayrağımızı gətirib orada asandan və himnimizi səsləndirəndən sonra biz həmin tədbirə qatıldıq. Elə həmin vaxtdan Vinçenzo Kastiqliolanın bizə çox yaxşı, isti münasibəti yaranmışdı. O, bizim bu vətənpərvərliyimizi yüksək qiymətləndirirdi.

***- Bəs necə oldu ki, sizə Oksford Akademiyasının fəxri professor adı verildi?***

- Heç gözləmədiyim halda mənə xəbər verdilər ki, mənə bir biznes ledi kimi idarəçilik üzrə professor adı vermək istəyirlər. Doğrusu, bunu eşitməyim mənə və kollektivimizə çox sevindirici oldu. Və hətta dünyanın 56 ölkəsindən məşhur həkimlər, baş həkimlər, xəstəxanaların rəhbərləri, tanınmış iş adamları canlı yayımla məni təbrik etməyə başladılar və gördüyüm uğurlu işlərdən ürək dolusu danışdılar. Onlar istəyirdilər ki, professor adının diplomunu, medalını, ordenini, mantosunu Azərbaycana gətirib, burada mənə təqdim etsinlər. Amma pandemiya dövrü olduğuna görə belə qərara gəldilər ki, fəxri adın diplomunu, medalını, ordenini, mantosunu mənə beynəlxalq səviyyəli poçt vasitəsilə göndərsinlər. Artıq göndəriblər. Mən, fəxri adla bağlı keçirilən iclas vaxtı çəkilən video-lentə baxanda görürdüm ki, orada Ermənistandan və başqa ölkələrdən olan ermənilər də var. Onlar da məcburən məni təbrik elədilər. Hətta həmin video-lentdə 56 xarici ölkənin nümayəndələri deyəndə ki, "Xuraman xanım Vətən müharibəsi dövründə və müharibədən sonra qazilərə, şəhid ailələrinə, onların valideynlərinə, bacı-qardaşlarına əlindən gələn köməklikləri eləyib və eləyir, onların hamısı "Milan" Hospitalında pulsuz müalicə olunurlar. Bu özü elə ən böyük vətənpərvərlikdir. Məhz buna görə də Xuraman xanım Muradova Oksford Akademiyasının professoru olmağa layiqdir". Bunu eşidən ermənilərin üzlərinə baxanda onların necə əsəb keçirdiyini aydın görürdüm.

Amma sizə bir həqiqəti deyim ki, mənim üçün bu müharibə dövründə və müharibədən sonra şəhidlərimizin ailələrinə, valideynlərə, qazilərimizə göstərdiyimiz tibbi xidmətdən böyük mükafat yoxdur. Burada onların heç birinə "yox" sözü deyilmir. Onlara elədiyimiz xidmət mükafatının yanında, Avropanın, dünyanın mükafatları mənimçün ikinci dərəcəli mükafatdır. Biz sahibkarlara ölkə başçımız əlindən gələn şəraiti yaradıb və lazım olan kimi işləyirik. Xalqımıza kömək eləmək, yardım göstərmək hər birimizin vətəndaşlıq və müqəddəs borcudur.

Mənim Oksford Akademiyasının professoru olmağımda həkim Səriyyə xanım Hüseynovanın da xidmətləri əvəzsizdir. Çünki "Milan" Hospitalla bağlı maraqlı məlumatları həmin assosiasiyaya tez-tez məhz o göndərir. O da bu assosiasiyanın üzvüdür.

***- Deməli, bu mükafat və fəxri ad həm də sizin 44 günlük Vətən müharibəsində göstərdiyiniz böyük fədakarlığınıza verilən bir qiymətdir.***

- Bəli, elədir. Mən müharibə dövründə demək olar ki, hər gün qurbanlar kəsib əsgər ailələrinə göndərirdim. Dağlara duman gələndə, havalar pis olanda Allaha yalvarırdım ki, əsgərlərimizə köməklik etsin. Orada yaxşı hava olsun ki, əsgərlərimiz vuruşa bilsinlər. Əli xınalı əsgərlərimiz, igid oğullarımız ermənilərə əsir düşməsin. Müharibə dövründə yaralı əsgərləri özəl klinikalara vermirdilər. Onlar dövlət xəstəxanalarında müalicə olunurdular. Amma buna baxmayaraq biz də həmin dövlət xəstəxanalarına lazım olan qədər dərmanlar, çəliklər, əlil arabaları verirdik və ümumiyyətlə əlimizdən nə gəlirsə köməkliklər edirdik. İnanın . Sizə səmimi deyim ki, 44 günlük Vətən müharibəsində mən elə bil ömrümün 44 ilini yaşadım . İndi biz xarici ölkələrə gedəndə başımızı dik qaldırıb gəzirik və bu hərəkətimizlə hamıya deyirik ki, qalib ölkənin vətəndaşıyıq. Biz Qarabağın fatehi cənab İlham Əliyevlə qürur duyuruq. Ordumuzun məğrur, qeyrətli oğulları ilə fəxr edirik. Biz iş adamları da xalqımız üçün, Vətənimiz üçün əlimizdən gələni etməyə çalşmışıq. Bu gün dünyada tanınan çoxlu imkanlı azərbaycanlı var. Onlar da xalqımız üçün əllərindən gələni etsələr, məğrur, igid, qürurlu xalq olduğumuz dünyaya bəyan olunar. Çox şükür ki, ölkəmizə cənab İlham Əliyev kimi güclü bir lider rəhbərlik edir. Ona bütün işlərində kömək edən Mehriban xanım Əliyeva kimi qocaq, ağıllı Birinci vitse-prezidentimiz var. Onların diqqət və qayğısı sayəsində səhiyyəmiz daha da inkişaf edir. Bax, ona görə də "Milan" Hospitalda "yox" sözü yoxdur. Hər birimiz sənətindən, işindən asılı olmayaraq Vətənə əsgər olmalıyıq. Çalışmalıyıq ki, əldə etdiyimiz qələbəmizlə kifayətlənməyib, Qarabağımızı möhkəm qoruyub, üçrəngli bayrağımızı tezliklə Xankəndinə, Xocalıya, Xocavəndə, Ağdərəyə, Əsgərana da sancaq!

***Ağalar İDRİSOĞLU,***
***Əməkdar incəsənət xadimi***

TƏRS BAXIŞ

# Bu, təxribat deyilsə bəs nədir?

## Yaxud, RSK-nın Xankəndidə erməni separatizmini təbliğ edən "muzeyində" nələri azıb?

**Artıq Rusiya sülhməramlı kontingentinin (RSK) (reallıqda isə sülhməramsızların-R.R.) müvəqqəti yerləşdikləri ərazilərdə nəyin baş verdiyini görmək, anlamaq elə də çətin deyil. Görünən budur ki, onlar məhz Azərbaycan dövlətinin etimad göstərməsi sayəsində Qarabağa sülh yaratmaq üçün gəldiklərini get-gedə müxtəlif davranış və fəaliyyət xüsusiyyətləri ilə inkar etməyə başlayıblar. Hətta yumşaq desək, açıq-aşkar separatçılığa, erməni işğalına rəsmən (!) dəstək göstərirlər. Lakin bəri başdan onu da deyək ki, bizim İvanları, Styopaları, Saşa və Jenyaları öz geriyə - öz xutorlarına vaxtından əvvəl göndərməyimizə zərurətlər artmağa başlayıb!**

### RSK-nın "soldatları" adıçəkilən "muzeydə" boy-boy fotolar çəkdirib erməni separatçılığına necə dəstək göstərdiklərini, sözün əsl mənasındakı, həyasızlıqla (!) nümayiş etdirdilər

Bugünlərdə RSK-nın məsul oduğu Qarabağ ərazilərimizdəki növbəti təxribatçı addım isə, sözün əsl mənasında, Azərbaycan xalqının və dövlətinin heysiyyatına, mənəviyyatına toxunan bir davranış kimi qiymətləndirilməlidir. Belə ki, torpaqlarımızın işğalı ilə nəticələndiyi və erməni separatçılığının əsasının qoyulduğu 20 fevral tarixində RSK Xankəndidə "Artsaxın azadlıq hərəkatı" adlı saxtakarlıq, işğalçılıq muzeyinə ekskursiya etdi.

Separatçılar "34-cü ildönümlərini" xüsusilə qeyd edirlər, hətta Ermənistanın baş naziri Nikol Paşinyan da "Artsax ermənilərinin azadlıq hərəkatlarının başlanğıcını" ayrıca təbrik etdi. Bundan sonra hansı sülh danışıqlarından bəhs etməyə dəyər..?!

Hələ bu, harasıdır? RSK-nın "soldatları" adıçəkilən "muzeydə" boy-boy fotolar çəkdirib erməni separatçılığına necə dəstək göstərdiklərini, sözün əsl mənasındakı, həyasızlıqla (!) nümayiş etdirdilər.

Məgər erməni separatçılarının səngərlər qazıb istehkamlar, dayaq məntəqələri qurmalarına, Azərbaycan vətəndaşlarına, hərbçilərinə atəş açmalarına yaradılan şəraitlərdən sonra sözügedən faktı da nəzərə alsaq, bundan artıq hər hansı əlavə sübutlara ehtiyac qalırmı?! Beləliklə...

### O da əbəs və təsadüfi deyil ki, "muzeydə" çəkilən fotoların birində "Artsaxın" əski parçası da yer alıb!

Beləliklə, biz onu da qeyd edə bilərik ki, RSK təmsilçilərinin Xankəndidəki separatçılıq "muzeyinə" ekskursiyaları bilavasitə təbliğat xarakteri daşıyıb. Daha dəqiq desək, fotoşəkillər də məhz həmin məqsədlə çəkilib. Bəlkə də rus "soldatına" həmin muzey ümumiyyətlə, maraqlı deyil, maraqlı olanlar onların başları üzərində oturan generallar, böyük, iri, yekə başlardır ki, onların əsas vəzifələrindən biri də məhz sözügedən istiqamətdə fəaliyyət göstərməkdir.

O da əbəs və təsadüfi deyil ki, "muzeydə" çəkilən fotoların birində "Arsaxın" əski parçası da yer alıb. Bütün bunlar isə eyni zamanda, belə bir nəticəyə də gəlməyə zəmin yaradır - görünür, Azərbaycan xalqının, dövlətinin əsgərinin, zabitinin səbrini son həddə çatdırmaq üçün bənzər təxribatlar bundan sonra da hələ çox törədiləcək. Onlar bizim əsəblərimizin üzərində sistemli şəkildə oynamağa davam edəcəklər.

### Sümüklər sızlayır...

Bu gün Xocalıda bazaların quran RSK erməni separatçılarının onlar üçün keçirdikləri konsertlərə həvəslə qulaq asırlar.

Elə də uzaqda olmayan ərazilərdə isə 30 il əvvəl vəhşiliklə qətlə yetirilən xocalıların - ana-bacılarımızın, qoca babalarımızın, körpə balalarımızın, hamilə qadınlarımızın, atalarımızın sümükləri sızlayır.

Yeri gəlmişkən, indi həmin sümüklərin üzərində erməni separatçıları qəsəbə salırlar, evlər inşa edirlər, infrastruktur yaradırlar və beləcə təxribatçı əməllər davam edir. Amma!

Amma hər səbrin də tükənən bir vaxtı olur və artıq həmin səbrin vaxtı da daralmağa başlayır...

*Rövşən RƏSULOV*














# İtaliyalı professor:
# “Sülhün bərqərar olmasında Zəngəzur dəhlizinin açılması mühüm amildir”

Fabrissi Vielmini: "ABŞ və Böyük Britaniyanın bölgədə təsiri azalarsa, bu, regiona sabitlik və tərəqqi amili gətirər"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi” istiqaməti çərçivəsində hazırlanıb.*



**Daşkənddəki Beynəlxalq Vestminster Universitetinin professoru, Vision&Global Mərkəzinin (vision-gt.eu) analitiki Fabrissi Vielmini (İtaliya) ”Caliber” analitik mərkəzinə müsahibəsində Cənubi Qafqazdakı vəziyyət, Ermənistan və Azərbaycan arasında kommunikasiyaların açılması haqda fikirlərini bildirib. Müsahibəni oxucularımıza təqdim edirik.**

***- Cənab Vielmini, siz regionumuzla yaxşı tanışsınız, ona görə də fikrinizi öyrənmək istərdik: Azərbaycanın 2020-ci ildə İkinci Qarabağ müharibəsində qələbəsi nəyi dəyişdi?***

- O müharibənin nəticələri təbii ki, Azərbaycanın qeyd-şərtsiz qələbəsi ilə bağlıdır. Müvafiq olaraq, qələbə bütün Qafqaz miqyasında geosiyasi qüvvələr balansında ciddi dəyişikliyə səbəb oldu. Azərbaycan təxminən 30 illik erməni nəzarətindən sonra öz əraziləri üzərində suverenliyini bərpa edib. Digər tərəfdən, burada həm də Türkiyənin rolu var.

***- Sizcə, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması mümkündürmü?***

- Bir sözlə, yaxın gələcəkdə Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılmasını mümkün hesab etmirəm. O zaman mümkün olacaq ki, iki ölkə arasındakı münaqişə burada öz məqsədlərini güdən başqa güclər tərəfindən istifadə edilməyəcək. Əgər İranın varlığını nəzərə alaraq və Türkiyə və Rusiyanın qarşılıqlı maraqları üst-üstə düşsə, o zaman Ermənistan-Azərbaycan münasibətlərinin normallaşmasının mümkün olacağına inanıram. Ancaq burada başa düşmək lazımdır ki, Türkiyə-Rusiya münasibətləri həmişə çətin olub və tarixin də göstərdiyi kimi, müxtəlif mərhələlərdə bir-biri ilə ittifaqda olmaqdansa, əsasən rəqabət aparıblar. Ona görə də iki ciddi geosiyasi oyunçunun maraqlarının nə dərəcədə üst-üstə düşəcəyini proqnozlaşdırmaq çətindir.

***- Azərbaycan və Ermənistan sülh müqaviləsi imzalaya biləcəkmi?***

- Bu münasibətlə birmənalı olaraq nəsə demək çətindir. Fikrimcə, bu məsələdə mühüm amil regionda Rusiya, Türkiyə və İranın maraqlarının bir-birinə qarışdığı logistika dəhlizinin açılmasıdır. Məhz bu ölkələrin əməkdaşlığından Bakı və İrəvanın Zəngəzur dəhlizinin fəaliyyətini asanlaşdıracaq bəzi sənədlərin imzalanması istiqamətində gələcək addımları asılı olacaq.
















***- Türkiyə ilə Ermənistan arasında münasibətlərin normallaşması və onlar arasında sərhədin açılması barədə nə düşünürsünüz?***

- Vaxtilə, ”futbol diplomatiyası” adlanan dövrdə, 2008-2010-cu illərdə Türkiyə Ermənistanla münasibətlərdə gərginliyi aradan qaldırmaq cəhdləri edib. Bu, Türkiyənin xoşməramlı jesti idi. Amma mən Türkiyə-Ermənistan münasibətlərinin normallaşması ilə bağlı vaxtından əvvəl heç bir proqnoz verməzdim.

***- Bəs italyanlar Qarabağ münaqişəsi və Ermənistanın təcavüzü haqqında nə bilirlər? İtaliya ictimaiyyəti arasında bu məsələyə münasibət necədir?***

- İtaliyalılar Qafqaz, Qarabağ, hətta Ermənistan-Azərbaycan münaqişəsinin mürəkkəbliyi haqqında az şey bilirlər.

***- Azərbaycanla Avropa İttifaqı, xüsusən də İtaliya ilə əlaqələrin səviyyəsini necə qiymətləndirirsiniz?***

- Əvvəla, aydınlaşdıraq ki, Avropa İttifaqı geosiyasi oyunçu deyil, bunu Ukrayna böhranı məsələsində bir daha göstərdi. Daha doğrusu, Aİ regionda öz üzvlərinin iqtisadi maraqlarını təşviq edən struktur kimi qəbul edilməlidir. Brüsseldə geosiyasi baxışın olmaması fonunda Azərbaycanın enerji resurslarına bütün maraq azalır və burada hər şey qarşılıqlı faydalı əsasda inkişaf edir. Hesab edirəm ki, bu əlaqələr gələcəkdə də uğurla inkişaf edəcəkdir.

Azərbaycanın İtaliya ilə də yaxşı ticarət-iqtisadi əlaqələri var. Ölkələrimiz sıx iqtisadi tərəfdaşlardır və bunun fonunda mədəni-humanitar, elm və təhsil sahələrində də əməkdaşlıq yüksək səviyyədə inkişaf edir. Beləliklə, hesab edirəm ki, burada hər şey aydındır, ikitərəfli əlaqələri daha da dərinləşdirmək üçün bütün əsaslar var.

Lakin unutmaq olmaz ki, İtaliyanın xarici siyasətinin formalaşması ABŞ və Böyük Britaniyanın təsiri altındadır və bu amil Roma ilə Bakı arasında münasibətlərin sonrakı gedişatını müəyyən edə bilər.

***- Bu regionlar üzrə mütəxəssis kimi Cənubi Qafqaz və Mərkəzi Asiyanın perspektivləri barədə nə deyə bilərsiniz?***

- Mən bu məsələdə optimist olmağa və Amerikanın təsirini neytrallaşdırmaq şərti ilə bu regionların gələcəyi üçün müsbət ssenari cızmağa çalışacağam. Əgər ABŞ və Böyük Britaniyanın bölgədə təsiri azalarsa, bu, regiona sabitlik və tərəqqi amili gətirər. Bu iki güc Cənubi Qafqazda və Orta Asiyada lazımi qüvvələr balansının formalaşmasına mane olur və İrana qarşı təxribat törədir, həmişə Türkiyə ilə Rusiya arasında konstruktiv münasibətlərə müdaxilə elementi olur.

ABŞ-ın Əfqanıstandan çıxarılmasının onun qonşu regionları və ətrafındakı geosiyasi teatrlar üçün yaxşı xəbər olduğu danılmazdır. Məsələn, amerikalılar Ukrayna böhranını süni şəkildə yaradıblar ki, bu da Qara dəniz regionunda qeyri-sabitlik amillərindən biridir.

Gürcüstanın hələ də NATO-ya daxil olmağa ümid etməsi və ”3+3” formatında iştirakdan imtina etməsi, məncə, ağılsız mövqedir.

Orta Asiyaya gəlincə, Qazaxıstanda baş verən son hadisələrin də göstərdiyi kimi, bu regionda gedən proseslər müəyyən dərəcədə gözlənilməzdir və daha çox ”sürprizlər” verə bilər. Ona görə də mənə elə gəlir ki, bu geosiyasi cəhətdən mürəkkəb regionda sabitliyi qorumaq üçün Rusiyanın iştirakı da daxil olmaqla kollektiv səylər lazımdır.

***Tərcümə - Elçin Bayramlı***

Səs
22 fevral
2022-ci il

# "Bu gün futbolda ondan böyük istedad yoxdur"



"Barselona"nın baş məşqçisi Xavi futbolçusu Pedri haqda fikirlərini bildirib. "Marca"nın yazdığına görə, La Liqanın 25-ci turunun "Valensiya"ya qarşı dünənki matçından (4:1) sonra təşkil edilən mətbuat konfransında gənc mütəxəssis 19 yaşlı oyunçu barədə müsbət fikirlər səsləndirib:

"Pedri top itirmir. O, hər iki ayağı ilə oynamağı bacarır. İndi əla formada, yüksək səviyyədədir. Onun etdikləri, korpusla topu saxlamaq, hücuma verdiyi dəstək... Bu, fantastikadır. Və onun cəmi 19 yaşı var. Bu gün dünya futbolunda ondan böyük istedad yoxdur. Yaxşı ki, mənim komandamda Pedri kimi oyunçu var".

# Xərçəngdən qoruyan göbələk növü hansıdır?

**Qidalanma sağlamlığın qorunmasında və bəzi xəstəliklərin, o cümlədən xərçəngin qarşısının alınmasında mühüm rol oynayır. Bu barədə ferra.ru saytında məlumat yerləşdirilib. Xəbərdə maraqlı məlumatlar və fikirlər yer alıb. Məsələn, reyşi göbələyi əsasında hazırlanan içkilərdən biri orqanizmi xərçəngdən qoruya bilər.**

Mütəxəssislərinin fikrincə, belə göbələklər potensial olaraq xərçəng əleyhinə xüsusiyyətlərə malikdir. Bunu araşdırmalar da təsdiqləyir. Belə ki, döş xərçəngindən əziyyət çəkən, lakin xəstəliyə qalib gələrək sağ qalmağı bacaran 4000-dən çox keçmiş xəstə arasında aparılan araşdırma subyektlərin təxminən 59 faizinin reyşi göbələyilə qidalandığını üzə çıxarıb.

Bundan əlavə, ayrı-ayrı laboratoriya tədqiqatları bu məhsulun xərçəng hüceyrələrini məhv etmək qabiliyyətini nümayiş etdirib. Bununla belə, alimlər reyşi göbələklərinin xərçənglə mübarizəyə yönəlmiş ənənəvi terapiyanı tamamilə əvəz edə bilməyəcəyini vurğulayırlar. Bu məhsullar yalnız bəzi hallarda müalicəni tamamlaya bilər.

*Mənbə: ferra.ru*

# 106 yaşlı avstraliyalı uzun ömür yaşamağın sirrini açıqladı

Uzun ömrün sirri həyatın varlığından bəri müzakirə olunan bir mövzudur. Avstraliyalı Gordon Evers isə bu böyük sirrini açmış kimi görünür. SİA-nın verdiyi məlumata görə, yenicə 106 yaşı tamam olan kişi ad gününü qeyd edərkən müsahibə verib və bu müsahibəsində bütün dünyanın maraqlandığı o sirri açıqlayıb.



Onun sözlərinə görə, uzunömürlü olmasının sirri "etdikləri deyil, etmədikləridir". Ağıllı yaşamaq, nizamlı nəfəs almaq, pozitiv düşünmək və ümidlə yaşamağın uzun ömrün təməl elementləri olduğunu söyləyir. Avstraliyanın xəbər kanalı "9 News"a danışan Evers həyatında heç vaxt siqaret və ya spirt istifadə etmədiyini açıqlayıb.

*Banuçiçək Hüseynli*

# "Avtoşluq" edib, "Tik Tok"da paylaşan sürücü həbs olunub

Balakən Rayon Polis Şöbəsinin Dövlət Yol Polisi Bölməsinin əməkdaşları tərəfindən keçirilən tədbirlərlə rayon ərazisində ictimai qaydanı və əhalinin dincliyini nümayişkaranə şəkildə pozan, cəmiyyətə açıqca hörmətsizlik ifadə edən sürücü saxlanılıb. SİA xəbər verir ki, DİN Mətbuat Xidmətinin Şəki regional qrupundan verilən məlumata görə, şəhər sakini Asif Əzizov idarə etdiyi "VAZ-2106" markalı avtomobillə davamlı şəkildə yol hərəkəti qaydalarını pozaraq avtoxuliqanlıq hərəkətləri edib və həmin əməllərini özünün "Tik Tok" sosial şəbəkə hesabında paylaşıb.



İntizamsızlıq edən sürücü Məhkəmənin qərarı ilə 1 il müddətinə sürücülük hüququndan məhrum edilməklə, 15 gün müddətinə inzibati qaydada həbs olunub.

# Qızıl və gümüş ucuzlaşıb




**Nyu-Yorkun COMEX əmtəə birjasında qızılın bir troya unsiyasının qiyməti 0,32 faiz azalaraq 1 893,7 ABŞ dollarına bərabər olub. SİA bu barədə birja məlumatlarına istinadən xəbər verir. Məlumata görə, COMEX-də gümüşün bir unsiyasının qiyməti 0,87 faiz azalaraq 23,83 dollar təşkil edib.**

# Həkimdən ŞOK XƏBƏRDARLIQ: Kolbasa siqaret və içkidən də zərərlidir!

**Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) bildirir ki, kolbasa sağlamlığa spirt və siqaretdən az təsir etmir. Səhiyyə təşkilatı artıq kolbasa, spirt və tütünün sağlamlıq üçün dəmək olar ki, eyni dərəcədə zərərli olduğu qənaətinə gəlib.**

Medicina.az-ın məlumatında deyilir ki, yoluxucu xəstəliklər üzrə mütəxəssis, pediatr Həmid Hacıağayev bu barədə məlumat verib. Həkimin sözlərinə görə, ilk növbədə, yüksək miqdarda duz, yağ, istiot və digər ədviyyatlar uşaqların bədəninə əlavə yük verir. Hazırda ət sənayesində bir çox əlavələrdən istifadə olunur ki, bu da hazır məhsulun orqanoleptik xüsusiyyətlərini (görünüşünü, dadını, ətrini, teksturasını) yaxşılaşdırmaqla yanaşı, həm də hazır məhsulun məhsuldarlığını artırır.

Bu problem sənayenin işləməyə məcbur olduğu dondurulmuş ət xammalından istifadə edərkən xüsusilə aktualdır, bu da uşağın bədəninə mənfi təsir göstərə bilər. Uşaqların qida rasionunda bu məhsulların mövcud olması bir sıra metabolik dəyişikliklərə və nəticədə ciddi xəstəliklərin inkişafına səbəb olur.

Qeyd etmək lazımdır ki, lazımsız inqridiyentlər piylənməyə səbəb ola bilər. Bu məhsulların istifadəsi həm mədə-bağırsaq traktında, dayaq-hərəkət aparatında patologiyaların artmasına birbaşa səbəb olur.

Erkən yaşdan uşaqda duzlu və ədviyyatlı yeməklərə vərdiş yaranır. Bu da normal qidalanma və inkişaf üçün böyük əngəllər yaradır. Uşaqlar üçün nəzərdə tutulan ət məhsullarında hansı inqridiyentlər olmamalıdır?

İlk növbədə buraya fosfatlar, dadlandırıcılar - qlutamatlar, süni rənglər, konservantlar (benzoik və sorbin turşuları və onların duzları) və digər kimyəvi maddələr aiddir. Qeyd olunan bu zərərli maddələr olmadan kolbasa (sosis, sardel və s.) istehsalı mümkün deyil.

"Əziz valideynlər, ehtiyatlı olun, sağlam kolbasa və ya uşaqlar üçün xüsusi hazırlanmış, zərərsiz kolbasa anlayışı yoxdur. Ümumiyyətlə, kolbasa və bu kimi məhsullardan böyüklərin də istifadəsi məsləhət görülmür", - deyə, həkim hər kəsi bu mövzuya həssas yanaşmağa dəvət çağırıb.

*Saglamolun.Az*






**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**